www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 mart 2016-cı il Cümə axşamı № 67 (6388) Qiyməti 60 qəpik

**Xəbər**

**Bakıda manyak peyda olub - uşaqlara qarşı alçaldıcı hərəkətlər edir**

yazısı səh.2-də

**Gündəm**

**Dünya liderləri Vaşinqtona yığışdı - gözlər Amerikada**

NUCLEAR SECURITY SUMMIT WASHINGTON 2016

Bu gün IV Nüvə Təhlükəsizliyi Sammiti öz işinə başlayır; Azərbaycan və Türkiyə prezidentlərinin də qatıldığı toplantını Rusiya prezidenti niyə boykot etdi?..

yazısı səh.9-da

**Dolların ucuzlaşma səbəbləri - ekspertlər danışır...**

yazısı səh.5-də

**ABŞ prezidentliyinə namizədlərlə əlaqəsi olan məşhur azərbaycanlılar...**

yazısı səh.7-də

**Yerli mallar vergidən azad oluna bilər**

yazısı səh.2-də

**Onlar əfv ərizəsi yazdılar, amma həbsdə qaldılar...**

yazısı səh.11-də

**"İnanırıq ki, Xədicə İsmayılova da Ali Məhkəmədən azadlığa buraxılacaq"**

yazısı səh.7-də

**Milli Məclisin "Avronest" PA-da iştirakdan imtina qərarının ilk zərbəsi**

yazısı səh.10-da

**Bakıda "avtoş" yol polisini vurdu**

yazısı səh.2-də

*Elçin Sadıqov:*

**"Əminəm ki, ölkə başçısına müraciətim müsbət nəticəsini verəcək"**

yazısı səh.10-da

**Keçmiş arvadından müğənni haqda şok sözlər - "arvad paltarı..."**

yazısı səh.14-də

**AVRO-2016-ya terror təhlükəsi...**

yazısı səh.12-də

**İlqar Məmmədovla bağlı proses sürətləndirildi**

yazısı səh.10-da

## Prezident siyasi münasibətlər sistemini yenidən qurur

# HAKİMİYYƏT YENİ İDARƏÇİLİYƏ KEÇİR - NƏLƏR OLACAQ...

"Virtual müxalifətin" hakimiyyətə heç bir təhlükə yaratmaması, iqtisadi çətinliyə baxmayaraq, xalqın meydanlarda "hakimiyyətə alternativ axtarışına" çıxmaması iqtidarı siyasi islahatları daha da dərinləşdirməyə meylləndirib; QHT-lərin bank hesabları, Qərbin demokratiya institutlarının isə Bakıda bağlanmış ofisləri yenidən açılır; siyasi dustaqlar azad edilir; iqtidar müxalifətin və tənqidçi medianın rolunu üzərinə götürür...




yazısı səh.5-də

## Eldar Mahmudovla bağlı sensasion qərar - "...apreldə həbs ediləcək"

Sabiq nazirin kompromat müharibəsi aparmaq iddiası iqtidarın əsəblərini tarıma çəkib

yazısı səh.3-də



*Arzu Nağıyev:*

**"Vaşinqton görüşündə Qarabağ münaqişəsinin həlli istiqamətində də müəyyən addımlar atıla bilər"**

yazısı səh.4-də



**"Türmə məsələsində rekordlar qırdım" - Tofiq Yaqubludan ilginc açıqlamalar**

yazısı səh. 8 və 9-da



**Yazıçı Əkrəm Əylisli aeroportda niyə saxlanıldı - rəsmi mövqe**

yazısı səh.2-də



## Antiböhran koalisiyasının iclası keçirilib

**30 mart 2016- cı il tarixində ALDP qərargahında müxalifətin antiböhran koalisiyasının iclası keçirilib. Bu barədə təşkilatdan musavat.com-a bildirilib. Koalisiya nümayəndələri mart ayında bir qrup siyasi məhbusun azadlığa buraxılmasını pozitiv hadisə kimi dəyərləndirib və bu məsələdə ölkə və beynəlxalq demokratik ictimaiyyətin səylərinin xüsusi rolunu qeyd edib. Azərbaycanda siyasi məhbus probleminin tam və birdəfəlik həllini, bunun üçün zəruri olan islahatlar aparılmasını, bütün siyasi məhbusların azadlığa buraxılmasını tələb edib.**

Siyasi motivlərlə siyasi mühacirlərin siyasi və sosial hüquqlarının bərpası ilə bağlı hazırlanan sənədin müzakirəsi aparılıb. Xaricdə yaşayan Azərbaycan vətəndaşlarının və azərbaycanlıların son dövrdə ölkəyə buraxılmasının əngəllənməsindən, "qara siyahıların" tərtib edilməsindən narahatlıq ifadə edilib.

"Böhrandan çıxış yolu - koalisyon hökumət" mövzusunda konfransın hazırlanmasının konseptual və təşkilati-texniki məsələləri müzakirə olunub. Qərara alınıb ki, konfransın konkret vaxtının və yerinin müəyyən edilməsi sonrakı iclasa saxlansın. Həmçinin Respublika Mitinq Komitəsinin işinin gücləndirilməsi tapşırılıb.

"Kredit tətili haqqında" qanunvericililik xarakterli sənədin hazırlanması barədə məlumat dinlənilib. İşin davam etdirilməsi məqsədəuyğun sayılıb.

Bir sıra nümayəndələr iri vəzifəli şəxslər və kredit oliqarxları tərəfindən xalqdan oğurlanmış on milyardlarla vəsaitin qaytarılması məsələsini qaldırıb və belə bir qənaət bildirilib ki, bu faktların ört-basdır edilməsi və ikinci dərəcədən şəxsləri məsuliyyətə cəlb etmək yolu ilə bu oğurluğun silinməsi prosesi gedir. Qeyd edilib ki, əsas məsələ oğurlanmış vəsaitin qaytarılması və belə halları qeyri-mümkün edən dəyişikliklərin, islahatların aparılmasıdır. Məsələnin ictimai müzakirəyə çıxarılması və bu mövzuda silsilə dinləmələrin keçirilməsi məqsədəuyğun sayılıb.

Antiböhran koalisiyasının işinin təkmilləşdirilməsi üçün katibliyin yaradılması məqsədəuyğun sayılıb.

31 mart 2016- cı il tarixdə saat 14-00-da türk- müsəlman soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi üçün Şəhidlər Xiyabanının ziyarət edilməsi qərara alınıb.

İctimai-siyasi vəziyyətə dair digər məsələlər müzakirə edilib.

## Bakıda manyak peyda olub - uşaqlara qarşı alçaldıcı hərəkətlər edir



**Bakıda uşaqlara qarşı təhqiramiz hərəkətlər edən manyak peyda olub. Lent.az-ın məlumatına görə, bir neçə gün əvvəl 37 yaşlı qadın 8-ci polis bölməsinə müraciət edərək Oqtay adlı şəxsin Mikayıl Useynov küçəsində onun oğluna qarşı alçaldıcı hərəkət etdiyini bildirib. Şikayətçi bildirib ki, həmin şəxs 13 yaşlı oğlanın 20 manat pulunu alıb. Daha sonra isə yeniyetmənin üzərinə təbii ehtiyacını yerinə yetirdikdən sonra pulu qaytarıb.**

Oxşar müraciətlə başqa bir qadın da polisə müraciət edib. 35 yaşlı həmin şikayətçi bildirib ki, Oqtay adlı şəxs M.Useynov küçəsində onun 11 yaşlı oğluna qarşı alçaldıcı hərəkətlər edib. Belə ki, Oqtay adlı şəxs uşağı bıçaqla hədələyərək 80 manatını alıb və daha sonra onun üzərinə təbii ehtiyacını ödəyib.

Artıq uşaqlara qarşı alçaldıcı hərəkətlər edən şəxsin kimliyi müəyyən edilib. Məsələ ilə bağlı araşdırmalar aparılır.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# 31 mart soyqırımından 98 il ötür

**Erməni-rus daşnaklarının azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımdan 98 il ötür. 1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan kütləvi qırğınlar 20 mindən çox günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın öldürülməsi ilə nəticələnib.**



Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirib, müsəlman ziyarətgahlarını yandırıb, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə edib. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan «Təzəpir» məscidi aramsız top atəşinə tutulub, ermənilər Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binasını yandırıblar.

Azərbaycanlılara qarşı soyqırım siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən 2560 qadın və 1277 uşağı qətlə yetiriblər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olub. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırıb, on minlərlə insanı vəhşicəsinə qətlə yetiriblər.

1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim edib, 1919-cu ildə Azərbaycan parlamenti 31 mart tarixinin Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul edib. Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, müstəqillik dövründə tarixi sənədlər əsasında 31 mart 1918-ci ildə Azərbaycan xalqının başına gətirilən faciəvi hadisələrlə bağlı çoxsaylı araşdırmalar aparılıb, kitablar dərc olunub. 1998-ci il martın 26-da prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayıb. Həmin gündən başlayaraq 31 mart tarixi Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur.

31 mart - Azərbaycanlıların soyqırımı günü münasibətilə dünyanın müxtəlif ölkələrində tədbirlər, anım mərasimləri, konfranslar keçiriləcək.



## Əkrəm Əylisli aeroportda niyə saxlanıldı - rəsmi açıqlama

**Yazıçı Əkrəm Əylislinin martın 30-da səhər saatlarında Heydər Əliyev adına Beynəlxalq Hava Limanında saxlanılmasının detalları məlum olub. İlkin məlumatda bildirilirdi ki, yazıçı Venesiyada keçirilən kitab festivalına getmək istəyirmiş. Yazıçı saat 5:19-da 613 saylı reyslə Frankfurta uçmalı imiş. Ə.Əylislinin həyat yoldaşı Qalina Əylisli bildirib ki, yazıçıya ölkədən çıxışına qadağa qoyulduğu deyilib. Amma bu qadağanın nə ilə bağlı olduğu açıqlanmayıb. Q.Əylisinin dediyinə görə, Əkrəm Əylisli böyük oğlu İlyas Əylisli ilə birgə Nəqliyyatda Baş Polis İdarəsinin hava limanındakı bölməsində saxlanılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə isə mediaya açıqlamasında Əkrəm Əylislinin saxlanması faktını təsdiq edib. O bildirib ki, Ə.Əylisli buraxılış məntəqəsindən keçərkən əməkdaşlarla münaqişə yaratdığı üçün saxlanılıb.

Musavat.com-un hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumatda yazıçının Almaniyaya uçmaq istədiyi təsdiqlənib. Mənbə bildirib ki, oğlu İlyas Əylisli orada tədbirdə iştirak etməli imiş. Ancaq bir neçə il öncə yazdığı və geniş rezonansa səbəb olan "Daş yuxular" romanına görə yazıçının ölkədən çıxmasına "stop" qoyulduğundan, onu ölkədən buraxmayıblar. Yazıçı Dövlət Sərhəd Xidmətinin əməkdaşları ilə mübahisə edib. DSX əməkdaşları akt tərtib edərək onu polisə təhvil veriblər. Yazıçının oğlu ölkəni tərk etsə də, özünü bir qədər saxladıqdan sonra sərbəst buraxıblar.



## Trampın seçki qərargahının rəhbəri həbs olundu

**Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd Donald Trampın seçki qərargahının rəhbəri Kori Levandovski qadın jurnalistə hücum etdiyi üçün həbs olunub. Avropa.info xəbər verir ki, Florida ştatının Jupiter şəhər polisi bildirib ki, Livandovski seçicilərlə görüşdə milyarderə sual vermək istəyən "Breibart" qəzetinin jurnalisti Mişel Fildsin əlindən tutub.**

Məlumata görə, seçki qərargahının rəhbəri məhkəmə iclasına gəlməyə söz verərək, polisdən buraxılıb. O, 4 may tarixində məhkəmədə iştirak etməlidir.

Trampın adamı qadın jurnalistə qarşı zor işlədib. Qadının əlində qan və göyərmə izləri buna sübutdur. Mişel Filds görüntüləri twitter hesabında yerləşdirib.

Tramp öz adamının tərəfini tutaraq, baş verənləri uydurma adlandırıb. Daha əvvəl Trampın mühafizəçiləri seçicilərlə görüşü çəkmək istəyən fotojurnalisti yerə yıxaraq döymüşdülər.

## Toyda dava düşdü

**Bakıda şadlıq evlərindən birində keçirilən toy mərasimində dava-dalaş olub. Lent.az-ın məlumatına görə, N.Tusi küçəsində yerləşən "Movida Plaza" şadlıq sarayında baş tutan məclis zamanı 1954-cü il təvəllüdlü Məmmədov Cavanşir İrşad oğlu xuliqanlıq zəminində döyülüb.**

Hadisəni törətmiş 1979-cu il təvəllüdlü Həsənov Cabir Həsən oğlu polis tərəfindən saxlanılıb.

C.Həsənov izahatı alındıqdan sonra sərbəst buraxılıb.

Faktla bağlı 35-ci polis bölməsində araşdırma aparılır.

## Bakıda "avtoş" yol polisini vurdu

**Bakıda yol polisi əməkdaşını maşın vurub. Şahidlərin APA-ya verdiyi məlumata görə, hadisə martın 30-da saat 17.30 radələrində "Azneft" dairəsində qeydə alınıb. Polisin "saxla" əmrinə tabe olmayan "Daewoo" markalı avtomobil xidmətdə olan yol polisi inspektorunu vuraraq ərazidən uzaqlaşıb. Xəsarət alan polis əməkdaşı xəstəxanaya aparılıb. Həyata keçirilən əməliyyat tədbirləri nəticəsində hadisəni törədən sürücü Bayraq Meydanı yaxınlığında saxlanılıb.**

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsindən APA-ya faktı təsdiqləyibler. Xəsarət alan polis əməkdaşının Nəsib Həsənov olduğu bildirilir.

Faktla bağlı araşdırmalar davam etdirilir.

## Yerli mallar vergidən azad oluna bilər

**"Bəzi yerli istehsal olan malların vergi rüsumundan azad olunması, vergi rüsumlarının azaldılması ilə bağlı təkliflər hazırlayıb hökumətə təqdim etmişik".**

AzərTAc xəbər verir ki, bu sözləri martın 30-da Azərbaycan-Türk Sənayeçi və İş Adamları Beynəlxalq Cəmiyyətinin (TÜSİAB) rəhbəri ilə Dövlət Gömrük Komitəsinin (DGK) sədri Aydın Əliyevin "Gömrük islahatları, yeniliklər və perspektivlər" mövzusunda işgüzar görüşü zamanı DGK-nın sədri deyib.

TÜSİAB-ın sədri Yavuz Keleş Azərbaycan və Türkiyə arasında baş tutan uğurlu iqtisadi əməkdaşlıqdan bəhs edib və türk iş adamları üçün Azərbaycanda yaradılan əlverişli iqtisadi şəraitdən məmnunluğunu bildirib.

Y.Keleş Azərbaycan prezidentinin tapşırığı ilə həyata keçirilən islahatların ölkə iqtisadiyyatına, həmçinin türk iş adamlarına müsbət təsirini bildirib.

## 13 ildir axtarışda olan şəxs Azərbaycana ekstradisiya olunub

**"İnterpol" xətti ilə axtarışda olan və Rusiyada tutulan şəxs Azərbaycana ekstradisiya olunub. "Report"un xəbərinə görə, Bakı şəhər sakini, 1964-cü il təvəllüdlü Akif Mövludə oğlu Əmiraslanov Rusiyanın Volqoqrad şəhərində saxlanılıb.**

A.Əmiraslanov bu ay Azərbaycana ekstradisiya olunub və 1 saylı İstintaq Təcridxanasına yerləşdirilib.

Əslən Dəvəçi (indiki Şabran) rayonundan olan A.Əmiraslanov 2003-cü ilin may ayından Suraxanı Rayon Polis İdarəsinin 33-cü Polis Bölməsi tərəfindən axtarışda olub. Daha sonra "İnterpol" xətti ilə axtarışa verilən A.Əmiraslanov Cinayət Məcəlləsinin 120-ci maddəsi (qəsdən adam öldürmə) ilə ittiham olunur.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 67 (6388) 31 mart 2016

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq şefi Eldar Mahmudov aprelin ilk ongünlüyündə həbs olunacaq. Redaksiyamıza daxil olan özəl xəbərdə iddia edilir ki, sabiq nazirin həbsinə hakimiyyətin ən yuxarı səviyyəsində qərar verilib. İddiaya görə, Eldar Mahmudov vəzifəsindən qovulandan sonra onun həbsə alınmamasını şərtləndirən bir sıra məqamlar olub. Sabiq nazirin vaxtilə göstərdiyi xidmətlər nəzərə alınıb.**

# Eldar Mahmudovla bağlı sensasion qərar - "...apreldə həbs ediləcək"

## Sabiq nazirin kompromat müharibəsi aparmaq iddiası iqtidarın əsəblərini tarıma çəkib

Lakin Eldar Mahmudovun azadlıqda qalaraq hakimiyyətdə təmsil olunan nazirləri hədəf alan saxta kompromatları ortaya çıxarması onunla bağlı həbs qərarının verilməsini şərtləndirib. Bildirilir ki, bir müddət əvvəl KQB-nin sabiq zabiti, eks-mayor Yuri Şvetsin maliyyə naziri Samir Şərifov haqda müsahibəsinin hazırlanmasında "Mahmudov izi"nin aşkarlanması siyasi hakimiyyətin səbrini daşırıb. Xatırladaq ki, Şvets həmin müsahibəsində Samir Şərifovu "üç qat agent" adlandırmışdı. Əslində bu müsahibəyə qədər də Eldar Mahmudovun Samir Şərifova münasibəti bəlli idi. Mahmudovun Şərifovla yolları dəfələrlə qudası Cahangir Hacıyevin sədri olduğu Beynəlxalq Bankdakı qanunsuzluqlarının ört-basdır olunmasına görə toqquşub. Eldar Mahmudov nəzarət səhmləri dövlətə məxsus olan Beynəlxalq Bankda baş verənlərə maliyyə naziri olaraq Samir Şərifovun diqqət ayırmaması üçün kreslosunun verdiyi imkanlardan çox ciddi şəkildə istifadə edib. Bu isə son illərdə tərəflər arasında çox ciddi qarşıdurmalara da səbəb olmuşdu.

Azərbaycanda ötən ilin fevralındakı devalvasiyadan sonra tərəflər arasında qarşıdurma bir qədər də dərinləşib. Yada salaq ki, 2015-ci il fevralın 21-də manatın ucuzlaşmasından bir neçə gün əvvəl həmin vaxt Beynəlxalq Bankın rəhbəri olan Cahangir Hacıyev, Mərkəzi Bank sədri Elman Rüstəmov, maliyyə naziri Samir Şərifov və bir neçə hakimiyyət rəsmisinin iştirakı ilə prezident yanında müzakirələr aparılıb. Sonuc olaraq manatın ucuzlaşması qərarı verilib. Həmin müzakirələrdən dərhal sonra C.Hacıyev öz yaxın ətrafının sərəncamında olan milyonlarla manat vəsaiti Beynəlxalq Bankda dollarda saxlanan aktivlərə dövr etmişdi. Bu isə hakimiyyətin üst düzeyində ciddi narazılığa səbəb olmuşdu. Beynəlxalq Bankda dövləti təmsil edən qurumun - Maliyyə Nazirliyinin rəhbəri kimi Samir Şərifovun baş verənlər haqda ölkə rəhbərliyinə məlumat verməsi isə Cahangir Hacıyevin və onun o dövrdə qüdrətli olan nazir qudasına xoş getməmişdi. C.Hacıyev bu əməliyyatdan sonra vəzifədə 1 ay duruş gətirə bildi. Onun həbsinə həmin günlərdə hazırlanan sanksiyanın icrası qoruyucu mələyinə çevrilmiş qudası Eldar Mahmudovun sayəsində 9 ay gecikdi. Eldar Mahmudov vəzifəsindən çıxarılandan sonra qudasını qorumaq üçün istifadə etdiyi rıçaqları itirmişdi. Bilinirdi ki, C.Hacıyevin həbsi labüddür. Sonradan baş verənlər onu deməyə əsas verir ki, Eldar Mahmudov uduzduğunu həzm edə bilməyib. Vəzifədə olduğu müddətdə Mahmudov Şərifova qarmaq atmaq üçün ən müxtəlif variantlara əl atıb, onu daim təzyiq altında saxlamağa hesablanmış addımlardan çəkinməyib. E.Mahmudov vəzifəsini itirəndən az sonra Samir Şərifov ən yüksək tribunadan açıq şəkildə Cahangir Haciyevin fəaliyyətini hədəf alan çıxış etdi. Milli Məclisin 2016-cı il üzrə Azərbaycanın dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı maliyyə naziri Beynəlxalq Bankın sabiq rəhbərliyini ciddi şəkildə tənqid etdi. Bununla tərəflər arasında qarşıdurmanın varlığı bir daha təsdiqləndi.



Həmin vaxt Eldar Mahmudov artıq onu qüdrətli edən kreslosunu itirmişdi. Amma 10 illik nazirliyi dövründə nəzarətinə keçən kompromat materiallar əlində idi. Araşdırmaçı-jurnalist Eynulla Fətullayevin iddialarına görə, məhz o, ölkə xaricindəki mətbu orqanlar üzərindən Samir Şərifovla bağlı sonradan saxta olduğu üzə çıxan materialları ictimailəşdirib. Eldar Mahmudovun bu hərəkəti Samir Şərifova zərbə endirməyə hesablanmaqla yanaşı, əlində kifayət qədər ciddi materialların olduğu göstərməyə hesablanmışdı. Yəni o, açıq şəkildə olmasa da, siyasi iqtidarı təhdid etmişdi. Lakin görünən budur ki, Eldar Mahmudov hesablamalarında növbəti dəfə yanılıb. Hakimiyyətdən "üç qat agent" məsələsinə Eldar Mahmudova lazım olan şəkildə reaksiya verilmədi. Siyasi iqtidar şantaja boyun əymədi və Samir Şərifovu "vurmadılar", əksinə, müdafiəsinə qalxdılar. Eynulla Fətullayev isə Şvetsin müsahibəsində dilə gətirdiyi məlumatların hansı mənbədən bəhrələndiyini, hansı sxemlə verildiyini açıq şəkildə ortaya qoydu. Bununla Mahmudovun "informasiya bombası"nı boşuna partlatdığını büruzə verdilər.

Mümkündür ki, sabiq naziri həbs etməklə gələcəkdə onun kompromat savaşı aparmasının qarşısını almaq qərarlaşdırılıb. Belə iddialar var ki, bəzi mətbuat orqanlarına Eldar Mahmudovun ətrafından, gizlində qalmış adamlarından yeni kompromat materiallar ötürülüb. Martın 28-də "Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqovun mahmudovçulara bağlı olan "reket mətbuatı" hədəf alan yazı ilə çıxış etməsini də təsadüf hesab etmək olmaz. Görünür, Mahmudovun kompromat savaşına hazırlıq görməsindən hakimiyyət texnoloqları da xəbərdardır və sabiq nazirin hazırlıqlarını önləmək, sıfıra endirmək üçün müvafiq addımlar atılır.

Bir sözlə, yaxın zamanlarda bu iqtidarda təmsil olunan daha bir nazirin, təhlükəsizlik generalının həbsinə şahid ola biləcəyik.

❑ **E.HÜSEYNOV**

# Rüstəm İbrahimbəyovun bağışlanmasının səbəbi...

## Məşhur kinorejissorla bağlı hakimiyyətə hansı məlumat daxil olub?

**Milli Şuranın fəxri sədri, Moskvada yaşayan xalq yazıçısı, kinorejissor Rüstəm İbrahimbəyov üç illik fasilədən sonra Azərbaycana gəlb bildi. Qardaşı, yazıçı Maqsud İbrahimbəyovun dəfn mərasimində iştirak edib-etməyəcəyi sual altında olsa da, yazıçı martın 23-də Bakıya döndü.**




Hələ R.İbrahimbəyov Milli Şuranın sədri olarkən, 2013-cü ildə prezidentliyə namizədliyini irəli sürəndən sonra ona cinayət işinin açıldığı barədə məlumat yayılmışdı. Vergilər Nazirliyi tərəfindən kinorejissorun rəhbərlik etdiyi Kinematoqrafçılar İttifaqında səyyar yoxlamalara başlamış, 2009-cu ildə XI "Şərq-Qərb" Bakı Beynəlxalq kinofestivalının keçirilməsi üçün ayrılmış pulların mənimsəndiyi barədə rəsmi xəbər yayılmışdı. Fakt üzrə Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi (külli miqdarda mənimsəmə və ya israf etmə) maddəsi ilə başlanmış cinayət işi üzrə Kinematoqraflar İttifaqının nümayəndəsi Lalə Əfəndiyevaya ittiham elan olunmuşdu. İttifaqın rəhbəri Rüstəm İbrahimbəyov isə bu ittihamları qurama adlandıraraq, siyasi fəaliyyəti və hakimiyyəti tənqid edən fikirləri ilə əlaqələndirib məqsədin onu susdurmaq olduğunu bildirmişdi. Son nəticədə R.İbrahimbəyovun prezidentliyə namizədliyi qeydə alınmadı və o, mühacirətə yollandı.

2013-cü ildən indiyə qədər R.İbrahimbəyovun geri dönəcəyi təqdirdə həbs ediləcəyi haqda dəfələrlə xəbərlər yayılıb. Xüsusən hakim partiya nümayəndələri tez-tez belə bəyanatlarla çıxış ediblər. Qeyd edək ki, prezident seçkiləri ərəfəsində mətbuata verdiyi açıqlamalarda kinorejissor özü də "həbs olunacağımı bilsəm belə, Bakıya gələcəyəm" deyirdi, ancaq gəlmirdi. Onun uzun fasilədən sonra Bakıya maneəsiz gələ bilməsi suallar doğurub. Bir çoxlarında belə düşüncə var idi ki, haqqında cinayət işi olduğu üçün R.İbrahimbəyov Bakıya gələrsə həbs ediləcək. Ancaq bəlli oldu kimi, o, qardaşının vəfatı ilə əlaqədar Bakıya gəldi, bu günə qədər də nə həbs olunmayıb, nə də ona hansısa maneə yaradılmayıb. R.İbrahimbəyova "yaşıl işıq" yandırılmasında kimin rolunun olması, onun bağışlanmasının səbəbi çoxlarını maraqlandırır.

İstənilən halda R.İbrahimbəyovun Bakıya, dəfn mərasiminə qatılmasına yuxarı səviyyədə razılıq verilməsi və önəmli şəxsin qarant durması şübhəsizdir. Bəzi müşahidəçilər hesab edir ki, kinorejissorun vətənə girişinə problem yaradılmaması son zamanlar ölkədə müşahidə olunan islahatların cəmiyyətə yönəlik açılımın, imzalanan əfv fərmanının, həmçinin bir neçə tanınmış məhbusun azadlığa buraxılması siyasətinin tərkib hissəsidir.

"Yeni Müsavat"a daxil olan xəbərdə isə deyilir ki, tanınmış kinorejissorun bağışlanması, hakimiyyətin ona münasibətinin yumşalmasının səbəblərindən biri onun səhhətində xeyli vaxtdır yaranan problemlərin ciddiləşməsidir. Hakimiyyətin ən yuxarı qatlarına R.İbrahimbəyovun xəstəliyinin ciddi olduğu barədə dəqiq məlumat daxil olub. Onun bağışlanması və nəinki vətənə dönüşünə, hətta burada qalmasına razılıq verilməsi də bununla bağlıdır.

Onu da qeyd edək ki, Maqsud İbrahimbəyov kimi Rüstəm İbrahimbəyov da zamanında hakimiyyət mənsubları ilə çox yaxın dostluq münasibətlərində olub. Görünür, iqtidarın ona münasibətinin yumşalmasında bu amil də rol oynayıb.

❑ **E.SEYİDAĞA**



# "Formula-1" yarışının Azərbaycanda keçirilməsi ölkəyə uzunmüddətli investisiyalar cəlb edəcək"

**"Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. 2015-ci ildə keçirilən I Avropa Oyunlarından sonra Azərbaycanda "Formula-1" yarışlarının təşkili ölkəmizin siyasi və iqtisadi sabitliyinin, beynəlxalq nüfuzunun, böyük tədbir və yarışların keçirilməsi ilə bağlı təcrübəsinin nəticəsidir".**

"APA-Economics" xəbər verir ki, bunu "The Business Year" jurnalına müsahibəsində Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

Nazirin sözlərinə görə, Azərbaycanda "Formula-1" yarışlarının keçirilməsi idmanın inkişafına mühüm təsir göstərəcək, iqtisadiyyata öz töhfəsini verəcək: "Bundan başqa, ölkənin pozitiv imici ölkəyə uzunmüddətli investisiyaların cəlb olunmasına şərait yaradacaq. Yarışda iştirak edən idmançılar və yarışı seyr edən qonaqların ölkə ilə tanış olmasına imkan yaranacaq, onlar Azərbaycanın uğurlu inkişaf modelini görə biləcəklər".

YENİ MÜSAVAT
N 67 (6388) 31 mart 2016

**"Yeni Müsavat" və müsavat.com-un budəfəki müsahibi politoloq, təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyevdir. Onunla söhbətə Azərbaycan prezidenti İlham Əliyevin ABŞ-a dünən başlayan səfəri və səfərdən dolayı gözləntilərə münasibətdən başladıq. Politoloq başqa aktual mövzulara dair suallarımızı da cavablandırdı.**



# "Milli təhlükəsizliyimizə ən böyük təhdid Qarabağ məsələsidir"

## Arzu Nağıyev: "Azərbaycan qədər tolerant ölkə yoxdur, ona görə bizdə, şükür, sakitlikdir..."

***- Arzu bəy, Azərbaycan prezidentinin ABŞ-a səfərini necə qiymətləndirisiniz? Regiondakı və dünyadakı siyasi durumu nəzərə alsaq, bu səfər hansı pozitiv nəticələrə səbəb ola bilər?***

- Martın 31-dən aprelin 2-dək qlobal nüvə təhlükəsizliyi ilə bağlı ABŞ-da böyük bir sammit gözlənilir. Burada supergüclər, nüvə başlıqlarına malik dövlətlərin rəhbərləri iştirak edəcək. Belə bir mötəbər sammitə Azərbaycan prezidentinin dəvət edilməsi özü müsbət haldır. Əsas məsələ odur ki, prezident İlham Əliyevin özünün də çıxışı gözlənilir ki, Azərbaycan bu məsələdə hansı işləri görür, ölkəmizdə atom energetikası üzrə hansı işlər aparılır. Eyni zamanda Ermənistan KİV-ləri belə bir məlumat yayıb ki, orada Azərbaycan və Ermənistan prezidentlərinin görüşü gözlənilir. Bu məlumat hələ öz təsdiqini tapmayıb. Bundan başqa, düşünürəm ki, Azərbaycan prezidentinin Obama ilə görüşü baş tuta bilər.

Bildiyiniz kimi, bu il Amerikada seçki ilidir və buna görə də Obama administrasiyası bir sıra məsələlərə yenidən baxmağı və özlərindən sonra miras qoymaq istədikləri məsələləri bir daha nəzərdən keçirməyi planlaşdırır. Bu, həm də regional konfliktlər və münaqişələrlə bağlıdır. Bunun içində təbii ki, Dağlıq Qarabağ problemi, Ukrayna və Suriya məsələsi də var. Kerrinin bu yaxınlarda Rusiyada Putinlə görüşməsi və həmin məsələləri qabartması bunu deməyə əsas verir. Düşünürəm ki, Qarabağ münaqişəsinin həlli istiqamətində də müəyyən addım atıla bilər. Ümumiyyətlə, cənab prezidentin bu tədbirdə iştirakı çox mühüm addımdır.

***- Hazırda ölkə gündəminin əsas mövzularından biri də əfv məsələsidir. Siyasi məhbusların, son olaraq hüquq müdafiəçisi İntiqam Əliyevin şərti azadlığa buraxılması və bunun ölkə başçısının ABŞ-a səfəri ərəfəsində baş verməsi müzakirə olunur. Hətta bu addımın ABŞ-ın təsiri ilə atıldığı da iddia edilir. Bu cür fikirlərə münasibətiniz necədir?***

- Bu addım Novruz bayramı ərəfəsində də atıldı. Yəni təkcə İntiqam Əliyevin şərti azadlığa buraxılması məsələsi deyil. Bundan başqa, Qərbin Azərbaycana qarşı insan haqları ilə bağlı müəyyən tələbləri var idi. Məhz belə iradların qarşısının alınması üçün bu, vaxtında atılmış bir addım idi ki, artıq suallara yer qalmasın. Görürsünüz ki, zaman-zaman Avropa İttifaqının böyük bir məmur dəstəsi Azərbaycanı bu məsələlərdə ittiham edir. Heç meqa-layihələrdən danışan yoxdur. Düşünürəm ki, bu, vaxtında atılmış addımdır. Bu məsələdə Amerikanın heç bir təsiri yoxdur. Əgər biz müstəqil siyasət yürüdürüksə, həm Rusiya ilə, həm Amerika və Qərb tərəfdaşlığı çərçivəsində Avropa ilə ikitərəfli əlaqələrimizi inkişaf etdirməliyik. Mən buna böyük bir təsir deməzdim. Biz Avropaya inteqrasiya olunmaq istəyən bir dövlətik. Buna görə də bu addımlar təbii ki, atılmalı idi.



**"Vaşinqton görüşündə Qarabağ münaqişəsinin həlli istiqamətində də müəyyən addımlar atıla bilər"**

***- Dünyanın gündəmində olan başqa bir məsələ terrordur - qardaş Türkiyəni, Avropanı aciz qoyan terror... Necə oldu ki, dünyanın ən təhlükəsiz, xoşbəxt ölkələri bir anda terror təhdidi altında qaldı? Miqrant axını və silsilə terror olayları - bunlar arasında hər hansı əlaqə görürsünüzmü?***

- Bu problemin kökündə duran əsas səbəb Avropanın humanizmlə siyasəti səhv salmasıdır. İkinci məsələ odur ki, Suriya, Əfqanıstan və digər ölkələrdən gələn qaçqın kütləsi, ümumiyyətlə, Avropa miqyasında özünə yer tapa bilməzdi. Bu, Avropanın səhv addımı idi. Digər bir səhv isə ondan ibarət idi ki, əgər dövlətə və milli təhlükəsizliyə təhdid var idisə, onların vaxtında qarşısını almaq lazım idi. Axın-axın gələn miqrant kütləsi filtrasiyadan keçirilməli, onların arasında müvafiq əməliyyat-axtarış fəaliyyəti davam etdirilməli idi. Bir sıra dövlətlər öz sərhədlərini bağlasa da, Avropanın ümumi sərhədini bağlamaq imkanları olmadı. Bundan başqa, niyə miqrant kütləsi Almaniyanı və Böyük Britaniyanı seçir. Haradakı miqrantlara böyük pul vəsaitləri verilir, haradakı dini dəyərlərə hörmət qoyulur və onların inanclarını yerinə yetirmək üçün şərait var, həmin yerə axın edirlər. Türkiyədə də bu qədər terror aktı olmamışdı. Miqrant kütləsi gələndən sonra onların arasında xüsusi hazırlanmış terroristlər də var idi. Bütün miqrantlara terrorist demək olmaz. Lakin müəyyən tədbirlər görülməli idi ki, Avropa bu gün terrorun tüğyan elədiyi əraziyə çevrilməsin. Bu onların öz səhvlərinin nəticəsi idi.

**"Amerikanın yeni prezidenti nə Tramp, nə də Klinton olacaq"**

***- Dünyanın ən təhlükəsiz şəhərlərində terror olaylarının baş verməsi Azərbaycan insanını da düşünməyə vadar edir ki, ölkəmizdə də belə hadisələr baş verə bilərmi? Biz necə qorunuruq, təhlükəsizliyimiz necə təmin olunur?***

- Əsas məsələ odur ki, terror hadisəsi niyə baş verir, bu hadisənin əsas məqsədi nədir, təsnifatı nədir. Elə terror olayları var ki, bunu törədən təşkilat, sadəcə, həqiqətən var olduğunu sübut eləmək üçün edir. Heç bir kitabda, heç yerdə belə bir qayda yoxdur ki, insan insanı hansısa səbəbə görə öldürsün. Cihad eləmək başqa şeydir, şəhid olmaq başqa şey. Lakin bu gün günahsız insanları öldürməklə nəyinsə əvəzini çıxmaq səhv addımdır. Lakin burada dövlətin də məsuliyyəti var. Tam əməliyyat şəraitində nəzarət olmayanda, hüquq-mühafizə orqanları, xüsusi xidmət orqanları öz işini sona qədər yerinə yetirə bilməyəndə təbii ki, belə hadisələr baş verir. Azərbaycan Avropa dövlətləri ilə miqyasədə o qədər də böyük dövlət deyil. Azərbaycanın bir sərhədi ilə o biri sərhədinin arası 500 kilometrdir. Bunu tam nəzarətdə saxlamağa bizim hüquq-mühafizə orqanlarının gücü çatır. Buna baxmayaraq, milli təhlükəsizliyimizə ən böyük təhdid Dağlıq Qarabağ məsələsidir. Bundan böyük terror yoxdur. Hər gün bu qədər insan tələfatı baş verirsə, milyona yaxın insan yurd-yuvalarından qaçqın düşürsə, bundan böyük terror yoxdur. Azərbaycan vətəndaşını qorumaq Azərbaycanın hüquq-mühafizə orqanlarının bir nömrəli vəzifəsidir. Ona görə də istər nəqliyyat vasitələrində, istər metropolitendə, istər kütləvi tədbirlərin keçirildiyi ərazidə daimi əməliyyat şəraitində nəzarət olmalıdır. Bundan başqa, vətəndaşlar da ayıq-sayıq olmalıdırlar. Mən inamla deyə bilərəm ki, bu gün bəlkə də Azərbaycan qədər tolerant ölkə yoxdur. Ona görə də şükür ki, sakitlikdir.

***- Amerikanın və bütövlükdə dünyanın taleyini müəyyən edəcək bir hadisə də ABŞ-da keçiriləcək prezident seçkiləridir. Sizcə, bu seçki marafonunun qalibi kim olacaq?***

- Siz düz dediniz ki, ABŞ prezidenti təkcə öz ölkəsinin taleyini həll eləmir, bütövlükdə dünyanın taleyini həll edir. Amerika elə bir ölkədir ki, onların maraqları olan yerdə digər maraqlar arxa plana keçir. İzlədiyiniz kimi, hazırda Respublikaçılar Partiyası ilə Demokratlar Partiyası arasında çox böyük mübarizə gedir. Hər bir ştatda kimin nə qədər səs toplayacağı çox önəmli məsələdir. Seçki prosesi başlayanda respublikaçılardan Donald Tramp və demokratlardan Hillari Klinton öndə idi. Ancaq hesab edirəm ki, Trampa o qədər də ümid yoxdur. Çünki burada miqrant amili də var. Dünyada 220 milyon miqrant var, onların 45 milyonu ABŞ ərazisindədir. Əgər Tramp öz siyasətində miqrantlara qarşı belə münasibət bəsləyirsə, təbii ki, bu səsi yığa bilməyəcək. Bundan başqa, Tramp hərbçilərin mənliyinə toxunan müəyyən çıxışlar etdi. Tramp seçilərsə, bütün Amerika hərbi maşını ayağa qalxa bilər. Bu baxımdan Trampın şansı yoxdur. Hillari Klintona gəldikdə isə, Amerika tarixində qadın prezident olmayıb. O həm də keçmiş prezidentin həyat yoldaşıdır. Bundan başqa, Hillari Klinton dövlət katibi olanda dünyada baş verən bir sıra proseslərin həmmüəllifi oldu - istər Ukrayna məsələsində, istər İraq və Əfqanıstan məsələsində. Bunu Amerika xalqı unutmayıb. Buna görə də düşünürəm ki, Klintonun da prezident seçilməsi müəmmalıdır. Demokratlar Partiyasından Berni Sandersin imkanları daha böyükdür. Ümumilikdə, bu seçki Demokratların qələbəsi ilə nəticələnə bilər, ancaq bu nə Tramp, nə də Klinton olmayacaq.

***- Azərbaycanın maraqları baxımından kimi ABŞ prezidenti postunda görmək istəyərdiniz?***

- Amerikanın Azərbaycanda maraqları var. Bilirsiniz, bu gün Ermənistan Rusiyanın forpostudur, Rusiya Gürcüstan ərazisində də irəliləyir, qalır Azərbaycan. Azərbaycanı da Dağlıq Qarabağ münaqişəsi ilə daim gərgin vəziyyətdə saxlamağa çalışırlar. ABŞ son vaxtlar münaqişədə nüfuzunu artırmaq istəyir. ATƏT-in Minsk Qrupunun həmsədri Ceyms Uorlikin çıxışlarında da bu, hiss olunur. Azərbaycanın böyük layihələrinin həyata keçirilməsində, Dağlıq Qarabağ probleminin həlli istiqamətində Amerika müvafiq addımlar atsa, biz onunla razıyıq. İstənilən halda demokratik qüvvələrin hakimiyyətdə olması Azərbaycanın maraqları baxımından da müsbətdir.

***- Rusiya- Türkiyə münasibətlərində son günlər bir qədər sakitlik yaranıb. Son terror olaylarından sonra Putin geri çəkilib, yoxsa bu, fırtına öncəsi sakitlikdir?***

- Hər iki dövlətin rəhbəri öz ambisiyalarına qapılmamalı, öz vətəndaşlarını düşünməlidirlər. Bu gün Türkiyə -Rusiya münasibətləri pik nöqtəsinə çatıb. Burada uduzan kimdir? Diqqətlə baxsaq görərik ki, istər Səudiyyə Ərəbistanı, istər Avropa Türkiyədən müəyyən asılılıqları olduğuna görə onlara hərtərəfli, maddi və mənəvi dayaq olmaq istəyirlər. Hətta gördünüz ki, bu yaxında Davudoğlunun Avropa səfərində miqrantların yaşaması üçün 6 milyard vəsait ayrıldı. Rusiyaya bu vəsaiti verən yoxdur. Rusiya təbii ki, Türkiyəni NATO qüvvəsi kimi görür. Ona görə də burada belə bir yaxınlaşma prosesi hələ ki yoxdur. Rusiya onu da başa düşür ki, bu ölkədə çalışan türk iş adamları, türk banklar geri çəkilsə, Rusiyanın iqtisadiyyatında böyük tənəzzül ola bilər. Rusiyada tənəzzül eyni zamanda sanksiyalarla bağlıdır. Qərb bu məsələdə Türkiyənin tərəfindədir. Elə bir dövr gəlib ki, artıq iqtisadiyyatı da düşünmək lazımdır. Rusiya üçün Suriyada müharibənin hər günü çox baha başa gəlir. Bu, son nəticədə hər iki ölkədə neqativ hadisələrlə nəticələnə bilər. Buna görə də hər iki ölkə yumşalmalıdır.

***- Neftin qiymətinin düşməsində də həm Rusiya amili, həm də başqa siyasi amillər var idi. Sizcə, bu siyasi amillər artıq aradan qalxıbmı? Neft yenidən bahalaşa bilərmi?***

- Neftin qiymətinin düşməsi təkcə Putinlə bağlı deyildi, eyni zamanda həm də terror təşkilatlarının - İŞİD-in, "əl-Nusra"nın nefti çox ucuz satması ilə bağlı idi. Dünya bazarında neftin bir bareli 30-35 dollar olduğu vaxtda hansısa terror təşkilatı onu 8-10 dollardan satırdı. Məncə, son olaylardan, İŞİD-in oradan çəkilməsindən sonra neftin qiyməti artmağa başlayıb. Eyni zamanda İran, Venesuella və Səudiyyə Ərəbistanı faktorları var. Neftin bahalaşması daha çox Səudiyyə Ərəbistanından asılıdır. Yəqin ki, neftin qiymətində də tənzimlənmə olacaq və mümkündür ki, bir barel 40-50 dollar arasında oynasın.

**Nərgiz LİFTİYEVA**
**Fotolar Məğrur MƏRD**

# Prezident siyasi münasibətlər sistemini yenidən qurur

**Son aylar prezident İlham Əliyevin ölkə daxilində atdığı addımlar-idarəetmə sahəsində islahatlar, vergi, gömrük, icra hakimiyyəti orqanlarının fəaliyyətində şəffaflıq təmin olunması istiqamətində verilən qərarlar, iqtisadi münasibətlər sistemini tənzimləyən qanunverici aktlarda azad iqtisadi mühitin, biznesin inkişafına yönəlmiş çoxsaylı dəyişikliklər, nəhayət, mart ayında siyasi məhbusların böyük əksəriyyətinin azadlığa buraxılması analitiklər tərəfindən Azərbaycanda “yeni bir dövrün” başlanması kimi qiymətləndirilir. Prezident idarəetmə sahəsində islahatların “yeni formatda” davam etdiriləcəyini hələ 2016-cı ilin astanasında bəyan etmiş, yeni formatın nədən ibarət olacağını “Azərbaycan xalqının maraqları mənim üçün hər şeydən üstündür”, deyərək konkretləşdirmişdi. Bu prosesə paralel olaraq hakimiyyət Qərblə korlanmış münasibətlərinə də yeni düzən verib, Avropa institutları (Avropa Birliyi, AŞ PA) və ABŞ-la siyasi, hətta hərbi əməkdaşlığı bərpa edib.**



# Hakimiyyət yeni idarəçiliyə keçir - nələr olacaq?

## “Virtual müxalifətin” hakimiyyətə heç bir təhlükə yaratmaması, iqtisadi çətinliyə baxmayaraq, xalqın meydanlarda “hakimiyyətə alternativ axtarışına” çıxmaması iqtidarı siyasi islahatları daha da dərinləşdirməyə meylləndirib; QHT-lərin bank hesabları, Qərbin demokratiya institutlarının isə Bakıda bağlanmış ofisləri yenidən açılır; siyasi dustaqlar azad edilir; iqtidar müxalifətin və tənqidçi medianın rolunu üzərinə götürür...

Neftin qiymətinin düşməsi ilə müşahidə olunan devalvasiyadan sonra ölkə daxilində narazılığın artmasının önlənməsi, hətta “narıncı inqilablar ssenarisi” quran bəzi Qərb dairələrinin planlarının əngəllənməsi hakimiyyətin özünəinamını artırıb.

Bir neçə gün əvvəl “Yeni Müsavat” Qərb diplomatik mənbələrinə istinadən rəsmi Bakının əsas dəstəkçisi olan Pentaqonun prezident İlham Əliyevlə bağlı mövqeyini əks etdirən bir məlumat dərc etmişdi. Həmin məlumatdan sitatı xatırladaq: **“Pentaqon rəhbərliyi hesab edir ki, prezident İlham Əliyev neftin yaratdığı böhrana baxmayaraq ölkəsində stabilliyi qorumağa nail olub və mövqeləri möhkəmdir. Bu səbəbdən də yaxın illərdə də İlham Əliyevin hakimiyyətdə qala biləcəyi üçün Pentaqon Ağ Ev administrasiyasını ”daha çıxarlı" siyasət yürütməyə razı salıb".**

***

Daxili amillər-xüsusən də özlərini radikal adlandıran, əslində isə çoxdan “virtual mübarizlərə” çevrilmiş ənənəvi müxalifətin hakimiyyətə heç bir təhlükə yaratmaması, üstəlik, iqtisadi çətinliyə baxmayaraq, xalqın meydanlarda “hakimiyyətə alternativ axtarışına” çıxmaması iqtidarı siyasi islahatları daha da dərinləşdirməyə meylləndirib. Qeyd olunur ki, iqtidar bəzi anti-Azərbaycan dairələrinin həm Avropada, həm də Amerikadakı fəaliyyətlərini yerli hökumətlər tərəfindən nəzarətə alınmasına nail olub ki, bu da xaricdən “ixrac olunan inqilablar” ssenarilərini birdəfəlik gündəmdən çıxarıb.

Məlumata görə, iqtidar “idarəolunan demokratiya” modelinə keçidi qətiləşdirib və son aylar atılan addımlar da bunun göstəricisidir. Bu, mərhum prezident Heydər Əliyevin yürütdüyü daxili siyasət modelidir və bütün çərçivələrin genişliyi ilə fərqlənir.

Məsələn, məlumat var ki, hakimiyyət Qərbin demokratiya institutlarının Bakıda bağlanmış ofislərinin yenidən açılmasına prinsipial razılıq verib. Yada salaq ki, 2014-cü ilin əvvəlindən Bakıda ofisi bağlanan əsas təşkilatlar məhz Amerika təşkilatlarıdır. Bu beynəlxalq təşkilatlar Bakıdan gedəndən sonra insan hüquqları, demokratiyaya ilə bağlı məsələlərin layihələşdirilməsi və maliyyələşdirilməsi faktiki mümkünsüz olub. Xəbərlərdə bildirilir ki, hesablarına həbs qoyulmuş QHT-lərin də normal fəaliyyəti üçün yenidən pəncərə açılır. Hesablardakı həbslər götürülür, müəyyən nəzarətlə qrant almaları və işləmələri əngəllənmir.

Yeri gəlmişkən, bir ildir Bakını həm də QHT-lərin fəaliyyətinə yaradılmış ciddi maneələrdən sonra tərk etmiş İqtisadi Təhqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlunun ölkəyə qayıtmasının səbəblərindən birinin də yeni açılımla bağlı olduğu vurğulanır.

***

İqtidar illərdir ağır şərtlər altında fəaliyyət göstərən müxalifətə də müəyyən nəfəslik, hətta efir verməyi düşünür. Şübhəsiz ki, burada da müəyyən “filtrizasiya” olacaq, iqtidarı ən sərt dildə tənqid, təhqir edənlərin “başını sığallamayacaqlar”, amma heç tutmayacaqlar da. Bu, mərhum prezident Heydər Əliyevin idarəçilik metodunu xatırladır, bəlkə də həmin idarəetmənin eynidir. Həmin illərdə Heydər Əliyev hətta ən sərt tənqidçilərini belə həbsə salmır, onların efirə çıxmasına şərait yaradır, müxalifətin etiraz aksiyalarını sanksiyalaşdırır, qəzetlərini oxuyur, rastlaşanda hətta onlara əl də uzadırdı...

Xəbərlərə görə, hakimiyyət müxalifətə müəyyən fəaliyyət çərçivələri tanımaqda qərarlıdır. Müxalifətin aksiyalar keçirməsi ilə bağlı qadağalar olmasa da, onlara müəyyən efir vaxtının verilməsi müzakirə olunur. Mövzu ilə bağlı bir mənbə deyib ki, iqtidar tam yeni keyfiyyətdə-xalqın qəbul etmədiyi yandaş müxalifət yox, sağlam tənqidçi müxalifətin yaranmasında maraqlıdır. **“Bu sırada yeni təşkilatlar da ola bilər, hətta bizim ənənəvi müxalifət də...”** deyə, mənbə bildirib.

***

Daha bir maraqlı gəlişmə hakimiyyətin media siyasəti ilə bağlıdır. Aydındır ki, bir neçə il əvvəl müxalifət qəzetlərinə qarşı yaradılmış və iqtidarın mövqeyinin müdafiə edən çap mediasına indi elə də ehtiyac yoxdur. Ümumilikdə bütün dünyada print medianın zəiflədiyi bir vaxtda iqtidar televiziyalara xüsusi diqqət yetirməyə başlayıb. Onlara da əlbəttə ki, müəyyən çərçivələr gözlənilməklə tənqid üçün yer verilib. Təsadüfi deyil ki, ATV telekanalı martın 30-da nazirləri və bütövlükdə məmurları kəskin tənqid edən süjet yayımlayıb. Süjetdə məmurların KİV-lərlə əməkdaşlıqdan imtina etmələri də tənqid olunub. Bundan başqa, telekanal xatırladıb ki, dövlət başçısının nazirlər və icra başçılarına dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq onlar hələ də xalqdan uzaqdırlar. İqtidar bu baxımdan müxalifətin və tənqidçi medianın rolunu da üzərinə götürmək istəyir ki, artıq ATV-də başlanmış bu proses digər hökumət telekanallarında da davamlı olacaq.

***

Dünya hazırda qaynar qazanı xatırladır. Ən stabil ölkələr belə sarsıdıcı hadisələrlə üzləşir.

Bu yazıda dəyişikliklərin qeyd olunan və olunmayan əlamətləri, verilən qərarların təhlili bir daha onu göstərir ki, Azərbaycanın yeni formatda idarəçiliyə keçidi başlayıb. Bütün problemli sahələrdə əsaslı struktur dəyişiklikləri, idarəetmə sisteminin yenilənməsi və şəffaf idarəçilik prinsiplərinin daha geniş formada tətbiqi başlayıb. Başqa sözlə, söhbət keyfiyyət və idarəetmə prinsipləri baxımından İlham Əliyevin quracağı yeni hakimiyyətdən gedir.

Dünyanın qarışdığı bir vaxtda qazananın Azərbaycan olması lazım...

❑ **“Yeni Müsavat”**



# Dollar niyə ucuzlaşır- ekspertlər səbəbləri açıqlayırlar...

## Yaxın həftələrdə vəziyyət dəyişə bilər, bahalaşma müvəqqətidir...

**Son günlər ölkədə dollar milli valyuta olan manata qarşı zəifləyir. Dünən bəzi banklarda dolların məzənnəsi hətta 1,49 manat nisbətində olub. Əksər ekspertlər bunun müvəqqəti olduğunu bildirirlər. Səbəbləri iqtisadçılar musavat.com-a açıqlayıblar.**

**Ekspert Natiq Cəfərli** bildirib ki, bayramdan sonra ilk iş günündə banklardan cəmi 0,5 milyon dollar tələbi gəlib: “Qısamüddətli ucuzlaşmada əsas səbəb budur. Bir də FES rəhbərinin çıxışından sonra dünyada dollar bir az ucuzlaşıb”.

**Ekspert Fikrət Yusifov** isə qeyd edib ki, dolların ucuzlaşmasının bir neçə əsas səbəbi var: “İlk öncə onu deyək ki, manatın keçən ilin dekabr ayında baş vermiş kəskin ucuzlaşması ərəfəsində və ondan sonrakı dövrdə insanlar arasında yaranmış panik vəziyyət onunla nəticələndi ki, onlar əllərindəki sonuncu manatı da dollara çevirərək manatın növbəti ucuzlaşmasını gözləməyə başladılar. Mətbuat səhifələrində manatın məzənnəsinin bir daha kəskin ucuzlaşacağı ilə bağlı verilən proqnozlar isə onları daha da şirnikləndirdi. Nəticə etibarilə əlində dollar olan insanlar maksimum gözləmə mövqeyində dayanmaq seçimi etdilər. Hər kəs manatın növbəti kəskin ucuzlaşmasını gözləyirdi. Ancaq bu gözləntilər özünü doğrultmadı. Çünki gözləntilərin əksinə olaraq ABŞ-ın Federal Ehtiyat Sistemi uçot dərəcəsini artırmadı, neftin qiymətləri isə saylı günlər ərzində 40 faizə qədər bahalaşdı. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, bu günə Mərkəzi Bank dövriyyədə manat kütləsini minimum həddə qədər azaldıb. Bu səbəbdən də hazırda bazarda manata olan tələbat böyükdür. Çünki insanlara alış-veriş etmək üçün manat lazımdır. Ona görə də son 5-6 ay ərzində əhali tərəfindən alınmış dollar kütləsi tədricən bazara çıxmağa başlayır. Manatın məzənnəsində baş verən müsbət dəyişikliklərin əsas səbəbləri bunlardan ibarətdir”.

**Ekspert Samir Əliyev isə bildirib ki, Azərbaycanda iqtisadi qanunauyğunluqlar işləmədiyi üçün hansısa proqnoz vermək çətindir.** “Amma yenə də risk edərək bir gözləntimi bölüşmək istəyirəm. Söhbət manatın məzənnəsindən gedir. Bu gün həm dünyada, həm də ölkədə baş verən proseslər manata müvəqqəti olsa da güvənlik verir. Neftin qiymətinin 40 dollar civarında sabitləşməsi və FES rəhbəri xanım Canet Yelenin uçot dərəcələrini ehtiyatla qaldırmaq niyyəti barədəki açıqlaması dünyada dolların möhkəmlənməsini bir müddət ertələyib. Dollar əsas valyutalara münasibətdə ucuzlaşmağa başlayıb. Bu, manata xarici təzyiqi azaldır”,- deyə o, sosial şəbəkədə bildirib. Ekspertin sözlərinə görə, digər tərəfdən, Mərkəzi Bankın manat kütləsini azaltması nəticəsində banklar manat qıtlığı ilə üzləşib: “Elə bunun nəticəsidir ki, valyuta hərracında bankların dollara tələbatı kəskin azalıb. Buna görə də manatın son günlər bahalaşması müşahidə edilir. Eyni zamanda vergi ödənişi dövrü yaxınlaşdığından şirkətlər, xüsusilə iri şirkətlər xarici valyutada olan vəsaitlərini manata çevirirlər. Ona görə də həm bazara əlavə dollar çıxarılıb, həm də manata ehtiyac artıb. Bu isə manatın mövqeyini daha da gücləndirir. Bütün bunları nəzərə almaqla demək olar ki, yaxın 1-2 həftədə manatın dollar qarşısında mövqeyi güclənəcək və müəyyən qədər bahalaşacaq. Hətta manatın 1,55 psixoloji həddi də keçməsi istisna edilmir. Ola bilsin manatın dollara olan rəsmi məzənnəsi 1,5-ə qədər yüksəlsin. Hər bir halda bu bahalaşma müvəqqəti xarakter daşıyacaq və uzunmüddətli dövrdə manatın ucuzlaşması qaçılmazdır. Çünki manatın bahalaşmasının heç bir iqtisadi əsası yoxdur və hazırda daha çox inzibati addımlardan dəstək alır.

Bütün bunlar sadəcə gözləntilərdir. Manatın məzənnəsi real səviyyəsini almadığından neftin bahalaşması hazırda manatın möhkəmlənməsini şərtləndirmir".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 67 (6388) 31 mart 2016



# Velosipedin millisi olurmu?

Hüseynbala SƏLİMOV

**Son günlərdə bir neçə siyasi məhbusun azad edilməsi əməlli-başlı nikbinlik yaratdı desək, elə bir izafi şişirtməyə yol verməzik. Adamda sözün əsl mənasında bir nikbinlik və gələcəyə ümid yarandı ki, bu da Azərbaycan kimi ölkədə elə də əhəmiyyətsiz məsələ deyil.**

Düzdür, ölkədə elə əvvəllər də siyasi məhbuslar azad edilib. Hətta bir neçə dəfə bu cür əfvlər olub. Amma siyasi məhbuslar bir tərəfdən azad edilir, digər tərəfdən də onların yeni dalğası yaranırdı.

Ümid edək ki, bu dəfə belə olmayacaq və biz bir daha hansısa əfv qərarını şərh etməli olmayacağıq. Bunu bir ümid kimi deyirik və gözləyirik ki, bu ölkədə də nə vaxtsa ümidlər də doğrulacaq. Təbii ki, siyasi məhbusların çoxu üçün cəzanın şərti cəza ilə əvəz olunması və siyasi məhbusların təpki altında saxlanması bir o qədər də ürəkaçan məsələ deyil. Amma nə etmək olar? Buna da şükr etmək lazım gəlir...

Ümumilikdə isə ilk dəfə olaraq gələcəklə bağlı çox ciddi ümid yaranıb. Əvvəla, düşünürük ki, əfv qərarı digər məhbuslara da şamil olunacaq. Ən başlıcası isə, gözləyirik ki, bu əfv qərarları daha ciddi siyasi islahatların təməli olacaq...

Bunun üçün potensial imkanlar varmı? Var. Hakim partiya düz 23 ildir ki, bu ölkəni idarə edir.

Bu illər ərzində çox şeyə nail olmaq olardı. Məsələn, niyə onlar seçkiləri bütün qaydalara uyğun şəkildə udmasınlar? Düşünürük ki, bu, sadəcə, həm də bir tənbəllik məsələsidir - avtoritar üsullarla rahatca kreslolarda oturmaq mümkündürsə niyə özlərini əziyyətə salsınlar? Amma tənbəlliyin də bir sonu olmalıdır. Əbədi olaraq belə davam edə bilməz...

Son illərdə insanlar, o cümlədən də müxalifət çox dəyişib. Uzun illərin konfrontasiyası, perspektivsizliyi insanları yorub. İslahatlar başlasa müxalifət qüvvələri tərəfindən də böyük dəstəklə qarşılanacaq...

Həm də siyasi islahatların ölkəyə əlavə impuls verəcəyi şübhəsizdi. Dəfələrlə yazmışıq ki, avtoritar sistemdən nə qədər nəticə götürmək mümkündürsə artıq götürülüb. İndi siyasi sistemin dəyişməsinə ehtiyac var...

Misal üçün, elə bu son günlərdə iki hadisə baş verdi ki, biz, yumşaq şəkildə desək, onları başa düşə bilmədik. Birincisi, "Cənub qaz dəhlizi"nin istiqrazlarının buraxılması nəticəsində ölkə faktiki olaraq borclandı. İkincisi, bayram günlərində, ölkəyə böyük turist axını gəldiyi bir vaxtda valyuta dəyişmə məntəqələri işləmədi, yalnız bir neçə gündən sonra 5-6 bank filialının adı çəkildi!..

Biz elə bir duruma gəlmişik ki, hətta hökumətin yanlış addımlarında da məntiq axtarmalı oluruq. Amma o məntiq olmaya da bilər. Məsələn, təxminən 40 milyard dollar valyuta ehtiyatı olan ölkə niyə borca girməlidir? Və yaxud da hökumət adamları bilmirdilərmi ki, bayram günlərində ölkəyə böyük turist axını olur?

Təbii ki, bilirdilər. Sadəcə, özlərini yormur, necə gəldi, qərar qəbul edirlər, o səbəbdən ki, onsuz da həmin qərarlara qarşı söz deyən yoxdur...

Bir tərəfdən deyirlər ki, ölkənin beynəlxalq maliyyə institutlarından asılılığı yoxdur. O biri tərəfdən də hiss olunur ki, hökumət yardım almaq istəyir. Yardımlar verilərkən isə siyasi islahatlar, ölkənin siyasi imici heç də axırıncı sırada olmur...

Ona görə də həm ABŞ səfəri ərəfəsində, həm də ölkənin imicini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər həyata keçirildi, ciddi əfv fərmanı verildi. Burada qeyd etmək yerinə düşərdi ki, bəzi ekspertlər hələ bir müddət bundan əvvəl deyirdilər ki, ciddi islahatlarsız keçinmək mümkün olmayacaq...

Ona görə də ümidliyik. Bir daha deyirik ki, avtoritar idarəçilik artıq özünü tükəndirib. Yeni addımlara ehtiyac var...

Birincisi, media strukturlarının, məhkəmələrin müstəqilliyi artırılmalıdır. İkincisi, idarəçilikdə cəmiyyətin iştirakı çoxaldılmalı, ciddi seçki islahatları və siyasi islahatlar həyata keçirilməlidir.

Ümid edirik ki, nəhayət, şərtlərdən, şərtiliklərdən qurtulacağıq. Niyə bizim işlər alınmır, niyə yerimizdə saymaqla məşğuluq? Cavab sadədir. O səbəbdən ki, istənilən modeli hansısa şərtlərlə, şərtiliklərlə korlayırıq, onları yararsız hala gətiririk. Bəzən buna "yerli şərait", "milli özünəməxsusluqlar" deyirik. Amma inanın, velosipedin millisi olmur...

O səbəbdən də gərək dünya ilə qaynayıb - qarışaq. Özümüzü kənar tutmaqla, öyməklə heç nəyə nail olmayacağıq...

Həm də könlü balıq istəyən özünü suya vurar deyiblər. Hakimiyyətdə olmaq yaxşıdır, amma bunun üçün bir az əziyyət çəkmək daha yaxşıdır...

# Rza Zərrabın həbsi ətrafındakı qaranlıq məqamlar

**Martın 19-da ABŞ-ın Mayami şəhərində həbs olunan Rza Zərrabla bağlı müzakirələr 10 gündən çoxdur ki, Türkiyə mətbuatının gündəmindədir. Rza Zərrabın kimliyi və onun bu vaxtadək hansı işlərlə məşğul olması barəsində "Yeni Müsavat" qəzetinin 28 mart sayında detallı məlumat vermişdik.**

## Türkiyə mediası həbsin yeni təfərrüatlarından yazıb; prezident **Ərdoğan:** "Bu, Türkiyə ilə əlaqəli mövzu deyil"; **Elxan Şahinoğlu:** "Rza Zərrab məsələsi uzun çəkəcək..."



Rza Zərrabın həbsindən sonra ekspertlər tərəfindən ən çox onun nə üçün ABŞ-a getməsi məsələsi müzakirə edilməkdədir. Əksər ekspertlər hesab edirlər ki, Zərrab ABŞ-a bilərəkdən gedib. Çünki o, ABŞ-ı özü üçün daha təhlükəsiz ölkə sayıb. Digər ekspertlərin fikrincə, Rza Zərrab, sadəcə, üzdə olan fiqurdur və "görünməyən güclər"in sifarişləri ilə hərəkət edir.

Türkiyənin "Aydınlık" qəzeti yazır ki, Rza Zərrab ABŞ-a getməzdən 3 ay öncə İstanbulda ABŞ Federal Təhqiqatlar Bürosunun (FTB) agentləri ilə təmasa keçib, onlarla İstanbulun Tarabya səmtində məxfi görüş keçirib. Görüş FTB-nin konspirativ mənzillərindən birində baş tutub. Bu görüşdən Türkiyə hakimiyyətinin xəbər tutmaması üçün maksimum məxfilik səviyyəsi tətbiq olunub: "Seçkilərdən bir müddət əvvəl Zərrab İranda Babək Zəncani haqqında edam qərarı veriləcəyini öyrənincə AKP hökumətindən onu qorumağı istəyib. Ancaq 1 noyabr seçkilərindən öncə baş nazir Əhməd Davudoğlu korrupsiya qalmaqalının yenidən gündəmə gəlməsindən ehtiyat edərək Rza Zərrabdan uzaq durub.1 noyabr seçkiləri sonrası Zərrab istəyini yenidən gündəmə gətirsə də, hökumətdən müsbət cavab ala bilməyib. Həmin ərəfədə Zərrab Davudoğlunun İran səfəri öncəsi AKP ilə yenidən təmasa keçib və onun məsələsini Tehranda qaldırmağı xahiş edib. Lakin onun istəkləri bu dəfə də yerinə yetirilməyib".

**Qəzet iddia edir ki, bütün bunlardan sonra FTB-nin agentləri ilə görüşən Zərrab əgər təhlükəsizliyi təmin olunarsa və verəcəyi məlumatlar lehinə istifadə edilərsə, ABŞ-a gedib FTB-yə təslim olmağa hazır olduğunu bildirib.** "Zərrab ABŞ-a gedəcəyini yaxın çevrəsindən heç kimə deməyib, turist kimi getdiyi görüntüsü yaratmaq üçün Mayamini seçib və arvadı Ebru Gündeşlə qızını da özü ilə aparıb".

Qəzet yazır ki, Zərrab haqqında iddianamə hazırlayan prokuror Preet Bharara onun nəzarətə alınmasından 3 gün əvvəl (16 mart) Ağ Evdə Amerika Ədalət Nazirliyi səlahiyyətliləri ilə birlikdə prezident Obama ilə görüşüb. Bharara Obama ilə görüşərkən çəkdirdiyi bir fotoşəkili da twitter hesabında paylaşıb.

**Bütün bu proseslər ərəfəsində Amerikaya səfərə gedən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da səfər öncəsi Atatürk Hava Limanında jurnalistlərin suallarını cavablandırarkən Zərrabın nə üçün Amerikaya getməsinə münasibət bildirib. Ərdoğan hadisəni Pensilvaniya ilə əlaqələndirərək, baş verənlərin, sadəcə, qara pul və ya digər başqa bir məsələ ilə bağlı olmasından məlumatsızlığına işarə edib:** "Bu mövzu əslində ölkəmizi maraqlandıran bir mövzu deyil. Həmçinin məsələnin, sadəcə, qara pul, yoxsa başqa bir məsələ olmasını bilmədən belə bir qiymətləndirmə aparmağı də doğru hesab etmirəm. Ancaq qara pulun ataları orada -Pensilvaniyada dayanırlar. Bildiyiniz kimi "paralel dövlət" quruluşlarının Amerikada bir çox təhsil müəssisələri var. O məktəblər ABŞ-ın milyonlarla dollarını yeyib. İlk olaraq bunlara baxsınlar. Bu məsələ ilə bağlı çoxlu məlumatlar ötürdük. Heç bir şəkildə hərəkətə keçmədilər. Bunlar kiçik rəqəmlər deyil, yəni yüz milyon dollarları aşan rəqəmlərdir".

**Türkiyə prezidenti çirkli pulların yuyulması ilə əlaqədar bəzi şəxslərin Türkiyədə həbs edilməsini, bəzilərinin isə qaçdığını deyib:** "Təəssüf ki, dostumuz Amerikanın rəsmiləri bu məsələdə həssaslıq göstərmədilər. Rza Zərrab ilə əlaqəli nə isə varsa, vəkilləri onu müdafiə edəcəklər. Ölkəmizlə əlaqəli mövzu deyil".

***

**Ərdoğanın nə üçün Pensilvaniyanın adını çəkməsini "Yeni Müsavat"a şərh edən politoloq Elxan Şahinoğlu bir sıra məqamlara toxundu. Politoloq Rza Zərrabın həbsinin Türkiyə hökumətində narahatlıq yaratmayacağını düşünür:** "Çünki məhz bir neçə ay öncə də Zərrabla bağlı Türkiyədə böyük qalmaqallar yaşandı. Ərdoğan baş verənləri ona qarşı təxribat saysa da, bir neçə naziri istefaya göndərmək məcburiyyətində qaldı. Həmin zaman hətta vəziyyət elə inkişaf edə bilərdi ki, Ərdoğanın istefası da gündəmə gələrdi. Ərdoğanla razılaşmaq olar ki, bu da qurulmuş bir əməliyyat idi. Çünki telefon dinləmələrini, yazışmaları hansısa polis nəfəri təkbaşına həyata keçirə bilməzdi. Aydın hiss olunurdu ki, bu prosesdə Fətullah Gülən şəbəkəsinin əli olub. Hadisələrin sonrakı gedişatı göstərdi ki, Ərdoğan Fətullah Gülləndən güclüdür. Ərdoğan bütün bu hadisələrə baxmayaraq vəzifəsini qorudu və Güllənlə mübarizəsini daha da şiddətləndirdi. İndi sanki yenidən bu proseslərin geri dönüşü baş verir. Zərrabın Amerikaya getməsi çox müəmmalıdır. Hər halda, o, artıq Amerikada həbs olunub. Türkiyə hakimiyyəti onun məhkəmədə hansı faktları açıqlayacağından narahatdır. Bu faktlardan isə Amerikada bəzi mərkəzlər Ərdoğan hökumətinə qarşı istifadə edə bilər".

**Politoloqa görə, Ərdoğan diqqəti Rza Zərrabdan Fətullah Gülənə yönəltmək istəyir:** "Artıq o, Amerikanı da ittiham etməyə başlayıb. Halbuki bu gün (dünən-red.) Amerikaya səfəri başlayır və orada rəsmilərlə görüş keçirəcək. Buna rəğmən, səfərdən öncə yenə Amerikanı tənqid etdi ki, Gülən kimi cinayətkarı geri qaytarmırlar. Aydındır ki, ABŞ əgər Gülənə oturum izni veribsə, onu heç zaman Türkiyəyə təhvil verməyəcək. Ondan müəyyən qədər öz maraqları üçün istifadə edəcək. Rza Zərrab məsələsi uzun zaman çəkəcək. Onun məhkəmədə nə deyəcəyi Türkiyədə çox böyük maraqla gözlənilir. Təsadüfi deyil ki, Rza Zərrabın məhkəməsinə Türkiyə müxalifətçilərinin bir qismi də getmək istəyirlər. Sanki Türkiyə müxalifəti ölkə daxilində Ərdoğanla bacara bilmir, Amerika və Rza Zərrab üzərindən ona zərbə vurmaq istəyirlər. Zərrabın Türkiyədə verdiyi ifadələr Ərdoğanı yıxmadı. Ancaq Amerikada verəcəyi ifadələr barəsində nə isə söyləmək çətindir".

**Baş verənlərin Türkiyə və İran münasibətlərinə necə təsir edəcəyi barəsində isə Türkiyə-İran İş Şurası Başçısı Rza Kami 30 mart tarixində öz fikrini bildirib. Musavat.com-un haberler.com saytına istinadən verdiyi məlumata görə, Rza Kami bildirib ki, baş verən hadisələrin Türkiyə-İran münasibətlərinə təsiri olmayacaq.** "Rza Zərrab və digərləri o qədər əhəmiyyətli sayılmır ki, iki ölkə əlaqələrinə təsir etsin. Təbii ki, ölkələrdə də fövqəladə fırtınalı bir vəziyyət olduğunda insanlar bir yol tapmağa çalışırlar. Bunu hətta bir şara bənzədə bilərsiniz. Şarı bir tərəfindən nə qədər sıxsan, digər tərəfi şişməyə başlayır. Əgər lazım olduğundan çox bir təzyiq tətbiq etsəniz o da partlayacaq. Mən də bu yaşananları şara bənzədirəm. Bir tərəfdən sıxılıb, digər tərəfdən qabarıqlıq yaradılıb. Amma bu anda o vəziyyətlər keçdi. Artıq normal bir müddət yaşayırıq" - deyə Rza Kami bildirib.

Rza Zərrab İrana qarşı ABŞ sanksiyalarını pozmaqda, beynəlxalq miqyaslı qeyri-leqal pul transferində və saxtakarlıqda, o sırada çirkli pulların "yuyulmasında" ittiham edilir. İttihamlar təsdiqini taparsa, onu 75 ilədək azadlıdan məhrum edilmə cəzası gözləyir.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 67 (6388) 31 mart 2016

# ABŞ prezidentliyinə namizədlərlə əlaqəsi olan məşhur azərbaycanlılar...

## Asim Mollazadə: "Kimin prezident seçilməsindən asılı olmayaraq ABŞ-ın yeni prezidenti və onun administrasiyası Azərbaycana daha çox yaxın olacaq"

**ABŞ-da noyabrın 8-də keçiriləcək prezident seçkilərində mübarizə aparmaq üçün prezidentliyə iddialıların vahid namizəd olmaq uğrunda ilkin seçkiləri davam edir. Artıq mübarizə meydanında cəmi 5 iddiaçı (Hillari Klinton, Donald Tramp, Berni Sanders, Ted Kruz, Con Kesic) qalıb. Ən az dəstəyi olan Con Kesicdir, ancaq hələ ki mübarizəsini davam etdirir. Öndə isə Demokratlar Partiyasından Hillari Klinton, Respublikaçılar Partiyasından isə Donald Trampdır.**



ABŞ prezidentliyinə iddiaçılarla bəzi məşhur Azərbaycan vətəndaşlarının şəxsi tanışlığı, dostluq münasibətləri var. Bu istiqamətdə fikir almaq üçün müraciət etdiyimiz **Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə** "Yeni Müsavat"a bildirdi ki, ABŞ prezidentliyinə iddiaçı olan şəxslərin çoxu ilə şəxsən tanışlığı var: "Mən indi ad çəkmək istəməzdim. Onu deyə bilərəm ki, çoxu ilə şəxsən tanışam və görüşmüşəm".

**A.Mollazadə onu da dedi ki, bu gün üçün seçkilərdə kimin qalib gələcəyini dəqiq müəyyən etmək çətindir:** "Əsas məsələ ondan ibarət olacaq ki, partiyaların qurultayına qədər hansı namizədlər öz fonduna daha çox dəstək qazanacaq və bu dəstəkdən istifadə edərək öz güclü kampaniyasını qurultaya qədər sürdürəcək. Hələlik hər iki partiyanın hərəsindən iki güclü namizəd var. Onlar Demokratlar Partiyasından Hillari Klinton və Sanders, Respublikaçılar Partiyasından isə Donald Tram və Ted Kruzdur. Trampın partiya rəhbərliyi ilə münasibətləri soyuqdur. O, yeni bir Respublikaçı Partiya görmək istəyi ilə fərqlənən siyasətçidir, fərqli mövqe ortaya qoyur. Ona görə də partiyanın rəhbərliyindən, elitasından dəstəyi azdır. Amma sıravi respublikaçılar ona praymerzlərdə dəstək veriblər. Odur ki, hələ sonda Respublikaçılar Partiyasının namizədinin kim olacağını dəqiq müəyyənləşdirmək çətindir. Demokratlar Partiyasının namizədinin isə Hillari Klinton olacağı ehtimalı yüksəkdir".

**DİP sədri qeyd etdi ki, kimin prezident seçilməsindən asılı olmayaraq ABŞ-ın yeni prezidenti və onun administrasiyası Azərbaycana daha çox yaxın olacaq:** "Ümidvaram ki, gələcək administrasiya Azərbaycan-ABŞ tərəfdaşlığını daha da gücləndirəcək, hər iki ölkənin ortaq maraqlarının inkişafı istiqamətində addımlar atılacaq, təhlükəsizlik və iqtisadi inkişafın daha da güclü olması üçün Azərbaycana dəstək daha çox olacaq".

**İctimai Siyasət İnstitutunun direktoru, məşhur ictimai fəal Bəxtiyar Hacıyevin isə ABŞ prezidentliyinə namizəd, keçmiş dövlət katibi Hillari Klintonla şəxsi tanışlığı var. Bu barədə "Yeni Müsavat"a danışan B.Hacıyev dedi ki, vaxtilə Klintonun seçki kampaniyasında könüllü olub. Sonra Azərbaycanda siyasi fəaliyyətə görə həbs olunanda o zamankı dövlət katibi Hillari Klinton onun azad olması ilə bağlı güclü dəstək göstərib:** "Bakıda xanım Klintonla bizim təkbətək görüşümüz də olmuşdu. İndi də onun seçki kampaniyasında çalışan tələbə dostlarım və yaxından tanıdığım insanlar var. Bu cür əlaqələr qalır. Amma hazırda xanım Klintonun şəxsən özü ilə birbaşa ünsiyyətim yoxdur".

**B.Hacıyev qeyd etdi ki, hazırda partiyalarının vahid namizədi olmaq uğrunda mübarizə aparan Hillari Klintonun Demokratlar Partiyasından, Donald Trampın isə Respublikaçılar Partiyasından kifayət qədər böyük üstünlükləri var:** "İndi hər iki partiyanın namizədinin kim olacağını isə demək bir az çətindir. Çünki praymerz keçirilməyən bir neçə böyük ştat var ki, onların nəticələrini gözləmək lazımdır. Əgər sürpriz olmasa, sonda Hillari Klintonla Devid Trampın 8 noyabrda keçiriləcək seçkilərdə ABŞ prezidentliyi uğrunda mübarizə aparması istisna deyil. Bu variant reallaşsa, artıq rahatlıqla demək olar ki, ABŞ-ın növbəti prezidenti Hillari Klinton olacaq. İndiki mərhələdə Tramp respublikaçılar arasında daha çox səs qazansa da əsas seçkilərdə təkcə partiya üzvləri deyil, bütün ölkə seçiciləri səs verəcəklər. Artıq indidən nəinki demokratlar, müstəqil institutlar, hətta Respublikaçıların özündə belə, Trampı dayandırmaq istəyində olan böyük qruplar var. Onlar Trapmın ABŞ-ın və Respublikaçılar partiyasının maraqlarına uyğun olmayan davranış sərgilədiyini bəyan edirlər. Onlar çox istəyərlər ki, Ted Kruz Respublikaçılar Partiyasının namizədi olsun. Kruz namizəd olmasa belə, Respublikaçılar Partiyasının özündə kifayət qədər çox insanlar var ki, onlar Trampa deyil, rəqibləri də olsa, demokrat namizədə səs verəcəklər. Bir çox amerikalılar düşünür ki, ABŞ prezidenti seçilən şəxsin həm daxili, həm xarici siyasətdə kifayət qədər təcrübəsi olmalıdır. Tramp yaxşı biznesmen olsa da - hətta onun yaxşı biznesmen olmasına da şübhələr var; bir çox insanlar onun atasından qalmış mirasla varlandığını iddia edir - dövlət idarəçiliyində, xüsusən də xarici siyasətdə çox böyük zəifliyi var. Ona görə də düşünürəm ki, ABŞ-ın prezidenti demokratların namizədi olacaq".

ABŞ prezidentliyinə əsas namizədlərdən olan Donald Trampla isə yaxın, hətta ailəvi dostluq münasibətləri, iş ortaqlığı olan məşhur Azərbaycan vətəndaşı nəqliyyat naziri Ziya Məmmədovdur. Onun oğlu Anar Məmmədovun Trampla isti əlaqələri haqda hələ 2014-cü ildə mediada informasiyalar yayılmışdı.

❑ **Etibar SEYİDAĞA**

# "İnanırıq ki, Xədicə İsmayılova da Ali Məhkəmədən azadlığa buraxılacaq"

## Fariz Namazlı: "İntiqam Əliyevin həbsdən çıxması bizdə ümidlər yaradıb"

**Ali Məhkəmədə araşdırmaçı jurnalist Xədicə İsmayılovanın Bakı Apelyasiya Məhkəməsinin qərarından verdiyi kasasiya şikayətinə baxılacaq. Prosesin günü hələ də məlum olmasa da, iclasa hakim Əli Seyfəliyevin sədrliyi ilə baxılacaq.**

Jurnalistin azadlığa buraxılacağına ümidlər artıb. Buna səbəb martın 28-də Ali Məhkəmənin hüquq müdafiəçisi İntiqam Əliyev barəsində müsbət qərar verməsi və onun cəzasını şərti cəza ilə əvəzləməsidir. Doğrudur, İntiqam Əliyev barədə baş prokuror Zakir Qaralov protest versə də, X.İsmayılov barəsində onun vəkilləri əvvəlki instansiya məhkəməsinin qərarından Ali Məhkəməyə müraciət ediblər. Amma bu amil də xanım məhbusun azadlığa buraxılacağı ümidlərinin üzərindən xətt çəkməyib. Novruz əfvində çoxsaylı siyasi məhbusun azadlığa buraxılması, ardınca İ.Əliyev haqqında məlum qərarın verilməsi X.İsmayılovaya "yaşıl işıq" yandırıb.

**Araşdırmaçı jurnalistin vəkili Fariz Namazlı "Yeni Müsavat"a açıqlamasında şikayətlərinin təmin olunacağına ümid etdiklərini söylədi:** "Biz hər məhkəmə prosesinə istənilən halda ümidlə çıxırıq. Şikayətimizin təmin olunacağına çox ümidliyik. Son aylarda gedən siyasi proseslər, verilən əfv sərəncamı, son olaraq da İntiqam Əliyevin azadlığa çıxması bizdə ümidlər yaradıb. İnanırıq ki, Xədicə İsmayılova da Ali Məhkəmədən azadlığa buraxılacaq. Mətbuatda adımdan Xədicə xanımın cəzasının Ali Məhkəmədə yüngülləşdiriləcəyi barədə sözlər yazılıb.



Amma mən belə sözlər deməmişəm. Sadəcə, ümidlə məsələyə yanaşdığımı söyləmişəm. İntiqam Əliyevin də Ali Məhkəmədəki prosesi yekunlaşmışdı, sadəcə, protest verilmişdi. Biz isə, Apelyasiya Məhkəməsinin qərarından şikayət vermişik. Ali Məhkəmənin hazırda səlahiyyəti çatır ki, Xədicə xanımı azad etsin. Proses barədə Xədicə İsmayılova ümidli deyil".

Xatırladaq ki, X.İsmayılova 2014-cü il dekabrın 5-dən həbsdədir.

Bakı Ağır Cinayətlər Məhkəməsi ötən il sentyabrın 1-də Xədicə İsmayılovaya 7 il 6 ay azadlıqdan məhrumetmə cəzası verib. Bundan başqa, o, 3 il müddətinə vəzifə tutmaq hüququndan məhrum edilib.

X.İsmayılova Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və israf etmə - külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1 (vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirli bilinərək 7 il yarım azadlıqdan məhrum edilib.

Xədicə İsmayılova ittihamları rədd edir, həbsinin jurnalist fəaliyyəti ilə bağlı olduğunu deyir.

"Amnesty International" Xədicə İsmayılovanı "vicdan məhbusu" elan edib.

❑ **Cavanşir ABBASLI**

# Bir millət - iki dövlət, biri firavan, biri əleyvan



**Xalid KAZIMLI**

**Şimali Koreyanın son 65 ildə dəyişməyən iqtidarı ölkə vətəndaşlarını aclığa və ağır iqtisadi vəziyyətə hazır olmağa çağırıb. Bu ölkəyə bələd olan adamların bu xəbərə reaksiyası ilk növbədə sarkastik olacaq. Ona görə ki, son 65 ildə (eləcə də ondan əvvəl) bu ölkənin əhalisinin tox günü olmayıb.**

Ölkədə çıxan partiya qəzeti (hesab edin ki, "Pravda", "Kommunist") yazır ki, ölkə 90-cı illərin aclığı ilə qarşılaşa bilər. Yeni söhbət faciəvi aclıqdan gedir.

Əgər partiya qəzeti belə yazırsa, demək, artıq aclıq başlayıb və acından ölənlərin ilk məzarlıqları salınmaqdadır.

Ötən əsrin 90-cı illərində aclıqdan Şimali Koreyada 3 milyona yaxın insan ölmüşdü. Amma bu, ölkə xalqının II Kimə (Kim Çen İr) olan sevgisini, pərəstişini azaltmamışdı.

I Kimin (Kim İr Sen) hakimiyyəti dövründə isə nə qədər koreyalının acından öldüyünə dair dəqiq statistika yoxdur. Bir milyon o tərəfə, bir milyon bu tərəfə ola bilər.

III Kimin (Kim Çen In) bir neçə il öncə başlayan hakimiyyəti dövründə isə ŞKXDR kütləvi aclıqla olmasa da, ağlasığmaz edamlarla dünyaya səs salmaqdadır.

İndi bu ölkəni aclıq gözləyir - 1930-cu illərdə Ukraynada 10 milyon insanın ölümünə səbəb olan və dünya tarixinə Qolodomor kimi düşmüş aclıq.

Ancaq ölkənin rəsmi mətbuatı əhalini ruhdan düşməməyə, pessimist olmamağa çağırır, yazır ki, "inqilaba gedən yol uzun və çətindir".

Şimali koreyalılar 65 ildir ki, o çətin və uzun yolu gəlirlər, amma sonuna çıxa bilmirlər və şair Məmməd Arazın sözü ilə desək, yolun ortasında əleyvan qalıblar.

Koreya yarımadasının cənubundakı ölkənin - Cənubi Koreyanın isə elə bir problemi yoxdur, bu ölkənin əhalisi mənzil başına çatıb, gülüstanda və firavanlıq içindədir.

İki ölkənin durumu haqda müqayisəli yazılar çox yazılıb. Yenidən təkrar etməyək. Yalnız onu deyək ki, Cənubi Koreya dünyanın ən firavan ölkələrinin siyahısında ilk iyirmiliyə girir.

Şimali Koreya isə dünyanın ən kasıb, aclıq çəkən 10 dövlətindən biridir.

Koreya xalqı da bizim kimi "bir millət-iki dövlət"dir. Biri aclıq çəkir, bütün dünyadan qida dilənir, o biri dünyanın kasıb ölkələrinə yardım edir, yatırımlar qoyur.

Bu yazını oxuyanlar deyə bilərlər ki, uzaq Koreya yarımadasındakı iki qardaş (milli mənşə etibarilə) dövlətin bizə nə dəxli var.

O dövlətlərin halının bizə birbaşa dəxli, isti-soyuğu yoxdur. Ancaq onlar parlaq nümunələrdir, ibrətlik örnəklərdir.

Şimali Koreya diktatura yuvasıdır, Cənubi Koreya demokratik dövlətdir. Birinci 65 ildir bir ailə tərəfindən idarə olunur, ikincidə son 65 ildə 30-dan artıq hökumət və baş nazir dəyişib.

Bu iki ölkə yüz ildən bəri döyüşən ideologiyaların əsərləridir. Birini sosializm və diktatura bu hala gətirib, digərini bazar iqtisadiyyatı (lap deyək, kapitalizm) və demokratiya ağ günə çıxarıb.

Dünyada diktatura yuvası olan firavan ölkə yoxdur.

Deyə bilərlər, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Oman, Küveyt və s. kimi ölkələr də var.

Düzdür, o dövlətlərdə demokratiyanın "D"-si belə yoxdur, hamısı kral ailəsi tərəfindən idarə olunur və aclıq çəkmirlər.

Ancaq yerin təkindən fışqırıb çıxan neft, qaz olmasaydı, onda baxardıq bu ölkələrdə yaşayan əhalinin vay-növsəsinə.

Onların üzünü ağardan qara neftdir, yerdən fəvvarə vurub çıxır, o dövlətin başbilənləri də ucuz-baha satır, milyardları özləri götürür, milyonları isə xalqa verirlər. Beləcə, ölkə əhalisi acından ölmür.

Yoxsa o ölkələr Şimali Koreya xalqı kimi iki kilo düyünün ümidinə qalardılar. Çünki prinsipcə, eyni feodal düşüncəni daşıyanlar tərəfindən idarə olunurlar.

Şimali Koreya xalqı vaxtında dürüst, azad, qanuni seçki keçirməyi öyrənsəydi, bacarsaydı, özünə tez-tez dəyişən hökumətlər seçə bilsəydi bu günə düşməzdi.

Çəkisi 130 kilo olan 30 yaşlı gənc diktatorun yaxınlığında olarkən kütləvi şəkildə riqqətə gəlib ağlaşmaqla, acından ölənləri doyura bilməyərək, mənasız raket sınağı keçirməklə Şimali Koreya hələ bir 40 il də xoşbəxt ola bilməyəcək.

Bu acı həqiqəti bilmək lazımdır.

YENİ MÜSAVAT
N 67 (6388) 31 mart 2016

# Milli Məclisin Avronest PA-da iştirakdan imtina qərarının ilk zərbəsi

## Ermənistan Azərbaycanın xeyrinə olan ifadələrin PA-nın qətnamə layihəsindən çıxarılmasına nail olub; ekspertlərdən hakimiyyətə çağırış

**Avropa Parlamentinin hakimiyyəti narazı salan qətnaməsinə cavab olaraq Milli Məclisin 2015-ci ilin 14 sentyabrında Azərbaycanın Avronest Parlament Assambleyasından çıxması barədə qəbul etdiyi qərardan ermənilər öz maraqları üçün yararlanmağa başlayıblar.**




Belə ki, martın son həftəsində Avronest PA-nın sessiyasında Avropa İttifaqı və "Şərq Tərəfdaşlığı" ölkələrinin xarici siyasət və mümkün təhlükələr üzrə mövqeyi barədə məruzə layihəsi dinlənilib və bu zaman Azərbaycan nümayəndə heyətinin yoxluğu İrəvanın xeyrinə olub. Bu barədə virtualaz.org saytının yaydığı xəbərdə deyilir ki, sonradan erməni deputat, Arvonest PA-da Ermənistan nümayəndə heyətinin rəhbəri Artak Zakaryan layihəndən ermənilərə sərf etməyən, lakin Azərbaycanın xeyrinə olan bəzi ifadələri çıxarmağa müvəffəq olub. Məlum olub ki, gürcü deputatlar ərazi bütövlüyünün təminatı və "Şərq Tərəfdaşlığı" ölkələrində işğal edilmiş torpaqların yolverilməzliyi ilə bağlı iki təklif irəli sürüblər və bu ifadələr mətnə öncə daxil edilib. Sonra isə Ermənistan nümayəndə heyətinin xahişi ilə gürcü deputatlar həmin ifadələrin mətndən çıxarılmasına razılaşıblar.

"Azərbaycanın bununla bağlı necə hərəkət edəcəyini hamı bilir. İclasda gürcü həmkarlarımız razılaşdılar ki, həmin ifadələr mətndən çıxarılsın", - Zakaryan sevinərək deyib.

Özü özlüyündə bu, gürcü deputatlar və ümumilikdə Avronest üçün qəribə mövqedir. Aydın məsələdir ki, Azərbaycan kimi Ukrayna, Gürcüstan və Moldova üçün də ərazi bütövlüyü və özgə torpaqlarının işğalı məsələsi vacib bəndlərdir. Lakin Azərbaycan nümayəndə heyətinin olmaması ona gətirib çıxarıb ki, ermənilər gürcüləri bu ifadələrin mətndən çıxarılmasına razı sala biliblər.

Bəs görəsən, belə qərar verərkən gürcü deputatları nə fikirləşirdilər?

**Virtualaz.org vəziyyəti aydınlaşdırmaq üçün Avronest PA-nın həmsədri Viktor Dolidzeyə müraciət edib.**

**V.Dolidze ilk növbədə təəssüf etdiyini bildirib ki, Azərbaycan Avronestin işində iştirak etməkdən imtina edir. O, həmçinin aprel ayında Azərbaycana səfər edəcəyini də bildirib:** "O ki qaldı sizin qaldırdığınız məsələyə, Ermənistan tərəfi xahiş etdi ki, mətndə "Gürcüstanın işğal olunmuş torpaqları" ifadəsi əksini tapsın. Əgər sizin nümayəndələr orda olsaydı və ifadənin dəyişməməsi xahişini etsəydilər, biz onlarla razılaşardıq. O zaman elə alınardı ki, söhbət bütün "Şərq Tərəfdaşlığı" ölkələrinin ərazi bütövlüyündən gedir. Gürcüstan həmişə nəinki Azərbaycanın, bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyib".

**Politoloq Elxan Şahinoğlu bu hadisənin Azərbaycan Milli Məclisinin Avronest PA-dan çıxmaq barədə qərarının yanlış, zərərli olduğunu bir daha ortaya çıxardığını bildirdi:** "Mən və bir çox analitiklər, siyasətçilər Azərbaycan Parlamentinin Avronesti tərk etməsi ilə bağlı qərarının emosional və yanlış olduğunu, bunun gələcəkdə Azərbaycanın zərərinə, Ermənistanın isə xeyrinə işləyəcəyini bildirmişdik. Təəssüf ki, son hadisə Azərbaycan Milli Məclisinin həmin qərarının necə yanlış qərar olduğunu bir daha ortaya çıxardı. Artıq Azərbaycan bunun ziyanını, ermənilər xeyrini görməkdədir. Milli Məclis "Ermənistan Avronestdə Azərbaycan əleyhinə qətnamə çıxarsa, biz o təşkilatda olmadan buna qarşı necə müqavimət göstərəcəyik" sualına o zaman cavab verməmişdi. Bu hadisə ciddi siqnaldır. Ona görə də vaxt itirmədən yenidən Avronestə qayıtmaq lazımdır. Siyasətdə emosional qərarlar vermək olmaz, ölkənin milli və təhlükəsizlik maraqları ön planda olmalıdır".

**Politoloq Natiq Miri də Azərbaycan Milli Məclisinin Avronest PA-da fəaliyyətinin bərpa edilməsi barədə qərar çıxarmasının vacibliyini bildirdi:** "Təəssüf ki, daha bir yanlış qərarın zərbəsini Azərbaycan olaraq aldıq. Heç olmasa bundan sonra belə acı sürprizlərlə qarşılaşmamağımız üçün yanlışı düzəltmək lazımdır. Milli Məclisin məlum qərarı işğalçı Ermənistanın Avronestdə əl-qolunu açıb. İşğalçıların əl-qolunu bağlamaq üçün Azərbaycan Avronest Parlament Assambleyasında iştirakdan imtina qərarını ləğv etməlidir. Onu da nəzərə almaq lazımdır ki, Avropa Parlamenti Azərbaycandan siyasi məhbusların azad olunmasını istəyirdi. Əsas istək bu idi və qarşıdurma vəziyyəti də bununla bağlı yaranmışdı. Artıq Azərbaycan prezidentinin əfv fərmanı və məhkəmələrin məlum qərarları ilə Avropa Parlamentinin azadlığını tələb etdiyi məhbusların əksəriyyəti azadlığa çıxıb. Yəni problem tam olmasa da həllini tapıb. Odur ki, Azərbaycanla Avronest arasında münasibətlərin dondurulmuş vəziyyətdə qalması üçün ciddi əsas da qalmayıb. Azərbaycan çox ciddi bir tribunanı ötən ilin sentyabrından itirib. Milli Məclis bu yanlışını təcili düzəltməlidir".

❑ Etibar SEYİDAĞA

# "İnanıram ki, ölkə başçısına müraciətim müsbət nəticəsini verəcək"

## Vəkil Elçin Sadıqov özünə və yaxınlarına qarşı aparılan kampaniyanın dayandırılmasını tələb edir: "Bu proses bir şəxs tərəfindən idarə olunur"

**Tanınmış vəkil Elçin Sadıqov son vaxtlar özünə və yaxınlarına qarşı aparılan qara piar kampaniyası ilə bağlı ölkə başçısına müraciət edib. Bu barədə o, özünün facebook səhifəsində status paylaşıb. Vəkil bildirib ki, ona qarşı təşkil olunan kampaniyanın arxasında yuxarı səviyyəli şəxslər dayanır.**



E.Sadıqov müraciətində qeyd edib ki, 2015-ci ilin yazından etibarən onunla bağlı Vəkillər Kollegiyasına əsassız şikayət edilib: "Kollegiyaya şikayətlərdə bir qayda olaraq mənim siyasi məzmunlu məhkəmə işlərində də müdafiəçi qismində çıxış etməyim vurğulanıb, bu amili əleyhimə yönləndirməyə çalışıblar. Sırf vəkillik fəaliyyətimə görə barəmdə əsassız intizam icraatı başlanıb. Halbuki mən vəkiləm, mənim üçün müdafiə etdiyim vətəndaşların şəxsiyyəti, mövqeyi, ideya və baxışları heç vaxt ön planda olmayıb, mənim üçün ən önəmlisi təbii ki, hər zaman pozulan hüquqların bərpası olub... Son günlər mənə qarşı aparılan kampaniya daha da intensivləşməyə başlayıb. Mənə, əzizlərimə iftira, böhtan atan, yalan, ləkələyici informasiyalar yayan şəxslər telekanallara da çıxış əldə ediblər. Azərbaycanın milli telequruluşlarından olan ANS telekanalının efirindən mənə və yaxınlarıma qarşı heç bir hüquqi əsası olmayan, zamanında hüquq-mühafizə qurumlarının araşdırmaları ilə təkzib edilən bilgilər həqiqət kimi cəmiyyətə ötürülüb. Yaxınımın adı övladını itirdiyi güman edilən valideynlərin hisslərindən məkrli məqsədlərlə, sui-istifadə edilməklə əsassız olaraq cinayət olayı ilə hallandırılıb. Halbuki sözügedən əsassız iddialar zamanında hüquq-mühafizə qurumları tərəfindən araşdırılıb və öz təsdiqini tapmayıb. Hazırda belə əsassız məlumatlar mənim peşə fəaliyyətimə görə yenidən gündəmə gətirilib və gözdən salınmağım, əsassız təqib olunmağım üçün istifadə olunmaqdadır".

**Vəkil prezidentdən ona qarşı aparılan kampaniyanın dayandırılması üçün gərəkli addımların atılmasını da xahiş edib:** "Heç bir hüquqi ölçüyə sığmayan bu kampaniyaya son verilməsi üçün ən doğru yol əlaqəli dövlət qurumlarının müdaxiləsi olardı. Sizə müraciətimin əsas səbəbi də budur. Müstəqil vəkillik demokratik cəmiyyətlərin özəyini təşkil edir. Konstitusion vəkillik fəaliyyətinə görə, insanları təqib etmək, onlara təzyiq göstərmək, nüfuzdan salmaq, ləkələmək yolverilməzdir. Sizdən mənə qarşı aparılan təzyiq kampaniyasının ədalətli araşdırılması, ona son qoyulması üçün gərəkli addımların atılmasını təmin etmənizi xahiş edirəm".

**"Yeni Müsavat"a açıqlamasında vəkil indiyə qədər aidiyyəti orqanlara etdiyi müraciətlər cavabsız qaldığına görə ölkə başçısına müraciət ünvanladığını söylədi:** "Məcburiyyət qarşısında qalıb cənab prezidentə müraciət etdim. Mənə qarşı aparılan kampaniya bir şəxs tərəfindən idarə olunur. Həmin şəxs dələduzluğa görə məhkum olunub. Onun bəzi yüksək vəzifəli şəxslərlə əlaqəsi var. Onların vasitəsilə bu kampaniyanı daha irəli aparır. İstəmirəm ki, kimsə adımla reklam olunsun. Hər şey artıq cəmiyyətə məlumdur. Bu barədə cənab prezidentə müraciətimdə hər şeyi göstərmişəm. Yazılı müraciət də etmişəm. Həmin müraciətdə konkret şəxslərin adını göstərmişəm. İctimai qaydada hələ ki ad çəkməyi lüzum bilmirəm".

**Sadıqov kampaniyanı yayan şəxslərə efir verən kanal barədə atacağı addımlardan da söz açdı:** "Söz azadlığını müdafiə edən şəxs kimi məhkəməyə müraciət etmək istəmirəm. Amma təəssüflər olsun ki, bu halda söz azadlığı və jurnalistikadan sui-istifadə olunur. ANS kanalı fikrimi soruşmadan, aidiyyəti orqanların bu məsələni araşdırdığını nəzərə almadan həmin məlumatları verib. Bundan əlavə, digər jurnalistlər də var ki, mövqeyimi öyrənmədən bu xəbəri yayıblar. İndiyə qədər müraciət etdiyim aidiyyəti orqanlardan ümumi cavablar gəlib. Mənə qarşı aparılan kampaniyanın durdurulması üçün real addımlar atılmayıb. Amma düşünürəm ki, prezidentə müraciətimin hüquqi əsası olacaq. Ona görə ki, bu kampaniya birbaşa vəkillik fəaliyyətimlə bağlıdır. Vəkillər Kollegiyasına dəfələrlə müraciət ediblər ki, Elçin Sadıqov jurnalistləri, hüquq müdafiəçilərini müdafiə edir. Hətta konkret müdafiə etdiyim şəxslərin də adlarını göstəriblər. İntizam icraatı qaldırılıb. Müraciətimin əsas səbəbi də odur ki, bu intizam icraatının qarşısı alınsın. Vəkil istədiyi şəxsi müdafiə edə bilər. Həmin şəxsin də müdafiə hüququ var. Əsassız intizam icraatına xitam verilməlidir. İnanıram ki, ölkə başçısına müraciətim müsbət nəticəsini verəcək".

❑ Cavanşir ABBASLI

# İlqar Məmmədovla bağlı proses sürətləndirildi

## Əliməmməd Nuriyev REAL sədrinin məhkəməsindən danışdı




**"Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev yaxın zamanda Respublikaçı Alternativ (REAL) Hərəkatının rəhbəri İlqar Məmmədovla bağlı məhkəmə prosesinin olacağını bildirib. Teleqraf.com xəbər verir ki, Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu Azərbaycan Milli Platformasının üzvləri ilə görüşdə çıxışı zamanı Ə.Nuriyev deyib ki, İnsan Hüquqları üzrə İşçi Qrupun həbsdə olan vətəndaş cəmiyyəti nümayəndələrinin azad olunması üçün çalışması işi sürətləndirilib. Əfv Komissiyasının üzvü təyin olduğunu xatırladan Ə.Nuriyev qeyd edib ki, hər zaman müzakirələrdə vətəndaş cəmiyyəti üzvlərinin azad olunması məsələsi qaldırılıb:**

"Bütövlükdə vətəndaş cəmiyyəti bu prosesdə birgə iştirak elədi. Bu, dövlətlə vətəndaş cəmiyyəti arasında əlaqələrin sıxlaşdırılması, yeni əməkdaşlıq imkanlarına gətirib çıxaracaq. İlqar Məmmədov, Asif Yusiflinin azad olunması istiqamətində də əlimizdən gələni edirik. Yəqin yaxın zamanda İlqar Məmmədovla bağlı məhkəmə prosesi keçiriləcək". Koalisiya üzvlərinin hesablarından həbsin götürülməsi məsələsinə toxunan Ə.Nuriyev bildirib ki, məhkəmə qaydasında həbslərin götürülməsi ilə bağlı qərar var və hazırda texniki proseduralar həyata keçirilir: "Cinayət işi və vergi sanksiyaları İqtisadi Tədqiqatlar Mərkəzindən Qubad İbadoğu və Qalib Bayramova, "Azad İqtisadiyyata Yardım" İB-in rəhbəri Zöhrab İsmayıla, "Demokratik Təsisatlar və İnsan Hüquqları" İB-dən Elçin Abdullayevə və "Free Person" İnsan Hüquqları Müdafiə Cəmiyyətindən Səbuhi Qafarova qarşı olub və artıq aradan qaldırılıb. Mirvari Qəhrəmanlı, Anar Orucov və Vüqar Bayramovun isə bank hesablarına həbs qoyulmuşdu, artıq bu da götürülüb". O, qrant layihələrinin qeydiyyatına başlanıldığını da söyləyib: "Donorlarla bağlı yeni qanunvericilik bəzi məsələlərlə əlaqədar prosedurları çətinləşdirib. Hazırda donorlarla bağlı məsələləri müzakirə edirik, irəliləyiş olacağı istisna deyil. Donorların Azərbaycanda qeydiyyatı istiqamətində Avropa İttifaqı ilə Azərbaycan hökuməti arasında danışıqlar aparılır, sazişin imzalanmasının sürətlənməsinə doğru istiqamət gedir". Hüquq müdafiəçisi Oqtay Güləliyevin sərhəddə yoxlanılmasının dayandırılması haqda qərara toxunan Ə.Nuriyev qeyd edib ki, barəsində şərti cəza müddəti başa çatmayan insanın ölkədən kənara çıxması qanunla yasaqlanır: "Məsələlərlə bağlı populist çıxışları doğru saymıram. Radikal yanaşmanı düzgün hesab etmirəm. Hazırda Oqtay bəyin övladları ilə bağlı məsələ ilə də məşğulam, nəticələr əldə etməyə çalışacağıq". QHT rəhbəri vurğulayıb ki, sərhəddə 18 nəfərlə bağlı əlavə yoxlamalar birmənalı şəkildə aradan götürülüb.

YENİ MÜSAVAT
N 67 (6388) 31 mart 2016

**Martın 17-də ölkə başçısının imzaladığı əfv sərəncamından iki həftə ötür. Novruz əfvi ilə azadlığa çıxan siyasi məhbuslarla hazırda nə işlə məşğul olmaları, fəaliyyətlərini davam etdirib-etdirməmələri, azadlığa adaptasiya proseslərinin necə getdiyi barədə söhbət etdik.**

# Onlar əfv ərizəsi yazdılar, amma həbsdə qaldılar...

## İlkin Rüstəmzadə və Əbdül Əbilovun azad edilməməsi müzakirələrə səbəb oldu; **Nurcahan Əbilov:** "Oğlumu nə üçün buraxmadılar?"

**İnsan Haqları Klubunun sədri, hüquq müdafiəçisi Rəsul Cəfərov azadlığa alışma prosesində çətinlik yaşamadığını qeyd etdi:** "Adaptasiyam normal şəkildə davam edir. Hesab edirəm ki, bununla bağlı xüsusi çətinliyim olmadı və olmayacaq. Sadəcə olaraq, müayinə lazım olacaqsa, müalicə məsələləri aktualdır. Düşünürəm ki, yaxın 1 ayda bu prosedurları keçəcəm. Fəaliyyətimlə bağlı artıq bir neçə dəfə qeyd etmişəm ki, özümü bundan sonra da hüquq müdafiə fəaliyyətində görürəm. Düşünürəm ki, bu, ölkəmiz və cəmiyyətimiz üçün zəruri fəaliyyət olacaq. Ümid edirəm ki, vətəndaş cəmiyyəti institutlari kimi fəaliyyətimizə tam şərait yaradılacaq, mürtəce qanunlar ləğv olunacaq".

**Keçmiş vicdan məhbusu rəhbəri olduğu təşkilatın fəaliyyətinin bərpası barədə düşünmədiyini də qeyd etdi:** "İnsan Hüquqlari Klubunun qeydiyyatı ilə bağlı məsələ hazırda Avropa Məhkəməsinin icraatindadır. Qərar verilənə qədər bu təşkilatın bərpası haqqında düşünmürük. Gözləyək görək, Avropa Məhkəməsi hansı qərarı çıxaracaq. Ona uyğun addımlarımızı atacağıq. Çox ümid edirik ki, qərar çıxana kimi Azərbaycanda QHT-lərin qeydiyyati sadələşdiriləcək. Qərar çıxana kimi fəaliyyətimi ya fərdi qaydada, ya da yeni təşkilatda davam etdirməyim mümkündür. Yenə də vətəndaş cəmiyyətinə münasibətdə hakimiyyətin siyasi iradəsindən çox şey asılıdır".

**Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlı azadlığa çıxdığı müddət ərzində evinə gələn qonaqları qarşılamaqla məşğul olduğunu söylədi:** "Hələlik qonaqları qəbul edirəm. Evdə müəyyən problemlər də var. Səhhətim də normal deyil. Oğlumun səhhətinin pisləşməsi ilə bağlı iki dəfə xəstəxanaya getmişəm. Başqa ciddi işlərlə məşğul olmağa imkanım hələ ki yoxdur. Bütün həyatımı siyasətə həsr etdiyim bəllidir. Son 5 ildə informasiyalardan təcrid vəziyyətində qalmışam. Siyasi yöndə kimin nə düşündüyünü, nələrin baş verdiyini dəqiqliyi ilə bilmirəm. Əsas real vəziyyəti dəyərləndirməyim lazımdır. Siyasi kursum bəllidir. Sadəcə, kimlərlə hərəkət etməyimi müəyyən etməliyəm. Mən həbsə düşəndə 50-60 partiya var idi. İndi öyrənirəm ki, artıq siyasi partiyaların sayı 130-u keçib. Təbii ki, yalnız qeydiyyatdan keçənləri nəzərdə tuturam. Fürsətdən istifadə edib bir daha deyirəm ki, mənim üçün ölkəmdə iki partiya var. "Milli satqınlar" və "mili vətənpərvərlər" partiyası. Bu cür qüvvələr hər yerdə var. Mənim siyasi mənsubiyyətimin necə olmasının önəmi yoxdur. İnsanın xalqına nə qədər maraqlı olduğu mənim üçün əsasdır. Bu cür şəxslər harada olmalarından asılı olmayaraq silahdaşlarımdır".


İlkin Rüstəmzadə


Əbdül Əbilov

**NİDA-çı gənc Rəşadət Axundov azadlığa çıxdığı müddət ərzində yalnız görüşlərdə olduğunu bildirdi:** "Çoxsaylı ziyarətlər olur. Adaptasiya prosesi yavaş-yavaş gedir. Gələcək planlarımla bağlı, açığı, hələlik heç nə yoxdur. Müalicə olunmaq üçün böyük ehtimalla xaricə gedəcəm. Bu müddət uzun və qısa ola bilər. Yenə də NİDA-dayam, NİDA-nın üzvüyəm. Belə də qalacam. Həbs ediləndə təşkilatın idarə heyətinin üzvü idim. Amma indi idarə heyətinin üzvü deyiləm, yeni rəhbərliyə daxil deyiləm. Amma təşkilatın hər birinə qərarına tabe olan insanam. Təşkilatın bütün fəaliyyətində iştirak edəcəm".

**"Tolışi Sədo" qəzetinin baş redaktoru Hilal Məmmədov azadlığa adaptasiya olunma prosesinin ağır keçdiyini bildirdi:** "4 ilə yaxın (3 il 9 aylıq) ayrılıqdan sonra, ötən bu günlər əsasən qohum-əqrəba, dost-tanış və həmkarlarımızla görüşlərə həsr olunub və hələ də davam etməkdədir. Amma fürsət tapıb, həbsdəki günlərdə bizə dəstək olan, məhbəsdə qələmə aldığımız yazılarımızı dərc edirən və ya digər əziyyətlərimizi çəkənlərin bu və digər fəaliyyətlərini nəzərdən keçirdirik ki, bir daha onlara minnətdarlığımızı ifadə etməyi unutmayaq. Əlbəttə, uzun müddət ayrılıqdan sonra bu və ya digər yerə adaptasiya prosesi heç də rahatlıqla deyil, bir qədər çətinlik və yorğunluqla başa gəlsə də, səbir və təmkinlə bunu da yaşamağa borcluyuq. Gələcək fəaliyyətimə gəldikdə isə pedaqoji fəaliyyətimi bərpa etməklə yanaşı, ölkəmizdə hüquqi, demokratik və azad bir cəmiyyətin və dövlətin bərqərar olması naminə sülhməramlı ictimai-siyasi missiyamızı da davam etdirmək niyyətindəyik".

Qeyd edək ki, Novruz əfvində prezidentə müraciət ünvanlayan siyasilərdən hamısının azad olunacağı gözlənilsə də, məlum olmayan səbəblərdən onlardan 6 nəfəri həbsxana ilə vidalaşdı. Hazırda əfv yazmalarına baxmayaraq, NİDA-çı gənclərdən İlkin Rüstəmzadə və Əbdül Əbilov hələ də siyasi məhbus həyatı yaşamaqda davam edirlər. Hər iki gəncin azad edilməmə müəmması əfv sərəncamı ətrafında əsas müzakirə mövzularından biri olub.

**Ə.Əbilovun anası Nurcahan Əbilova sözlərinin artıq tükəndiyini bildirdi:** "Siz yaxşı bilirsiniz ki, mənim necə həyəcan keçirdim. Amma oğlum yenə də həbsdə qaldı. Martın 25-də onunla görüşdüm. O da təəccüb edir ki, məni niyə buraxmadılar. Hələ də çox əsəbi və gergindir. Hələ də fikirləşirəm, oğlumu nə üçün buraxmadılar? Əbdül mənə dedi ki, mənim üçün də çox qaranlıq qaldı, axı niyə azad olunmadım. Azadlığa çıxacağına çox inanırdı. Saxlanma şəraiti, səhhəti normaldır. Sadəcə, əfvə görə əsəbi olub. Qabaqkına nisbətən çox sınıxıb".

❑ **Cavanşir ABBASLI**

# Neftin bahalıq müzakirəsi - hansı həddə realdır?

## Ekspertlər bildirirlər ki, manatın özünü tam rahat hiss etməsi üçün qiymətin 70-80 dollar olması lazımdır, amma...



**Neftin qiymətləri barədə proqnozlar bir-birindən çox fərqlənir. Hazırda Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,52 dollar artaraq 38,80 dollar təşkil edib. ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 0,42 dollar artaraq 39,56 dollar olub.**

İsveçrənin aparıcı maliyyə qruplarından biri olan "Credit Suisse" qrupu tərəfindən təqdim edilmiş proqnozda bildirilir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) daxil olmayan ölkələrdə yaxın gələcəkdə neftə olan tələbat sənayedəki istehsal artımını ötüb keçəcək. Proqnoza görə, bunun nəticəsində artıq may ayında neftin barelinin qiyməti 50 dollara qalxa bilər. "Credit Suisse" qrupunun qlobal energetika bazarlarının iqtisadiyyatı üzrə ixtisaslaşmış eksperti Yan Sitüartın gəldiyi nəticəyə görə, 2016-cı ildə neftə tələbat yenidən artım dövrünə qayıdır. Bu, neftin qiyməti üçün əlverişsiz olan bir sıra amillərin olmasına baxmayaraq baş verir. Belə amillər sırasında Stüart isti qışın başa çatmasını, resurs hasilatı sahələrində müşahidə olunan geriləməni, həmçinin Rusiya və Braziliya kimi inkişaf etməkdə olan iqtisadiyyatlarda baş vermiş tənəzzülü göstərir.

Hazırda neftə tələbat sabitdir, buna qismən Şimali Amerikada və Avropada iqtisadiyyatların bərpasının davam etməsi, həmçinin inkişaf etməkdə olan bazarlarda uzun müddət davam edəcək meyllər yardım edir. Sitüart dünya iqtisadiyyatında tənəzzülün qaçılmaz olması barədə verilən proqnozları şişirdilmiş sayır.

Amma bununla belə, onun fikrincə, qlobal ümumi daxili məhsulun (ÜDM) artımı ilə bağlı təhlükə saxlanmaqdadır. Dördüncü rübdə neftə tələbatın zəifləməsindən sonra bu təhlükə dünyanın iki aparıcı iqtisadiyyatında - ABŞ-da və Çində bərpa olunub. Stüart neftə tələbatın artımını sənaye istehsalı ilə deyil, inkişaf etməkdə olan ölkələrdə getdikcə artan orta sinfin istifadə etdiyi sərnişin nəqliyyatı ilə əlaqələndirir. Belə şəraitdə "Credit Suisse" proqnozlarına görə, neftə olan tələbat sənaye artımı göstəricisini geridə qoyacaq: **"İqtisadiyyat ressesiyaya yuvarlanmasa, biz bu il neftə tələbatın yumşaq bərpasını gözləyirik".** Neftə tələbat proqnozuna əsaslanan Stüart düşünür ki, may ayında neftin dəyəri barel üzrə 50 dollara qalxa bilər. Bu xəbər dövlət büdcəsinin 40 faizindən çoxunun birbaşa Dövlət Neft Fondundan maliyyələşən, büdcə gəlirlərinin 55 faizi neft sektoru hesabına təmin edilən Azərbaycan üçün də əlverişlidir. 2016-cı ilin dövlət büdcəsində neftin barelinin qiyməti 25 dollar götürülüb. Neftin dünya qiymətləri barədə verilən bir sıra proqnozlarda barelin qiymətinin 15-20 dollara qədər düşəcəyi barədə ehtimallar irəli sürülürdü. Amma Stüartın gəldiyi nəticə vəziyyətin elə də arzuolunmaz olmadığını ortaya çıxarır. Dünya bazarında son 20 gündə neftin barelinin qiymətinin 40 dollar ətrafında dəyişməsi də bu qənaəti gücləndirir.

Yerli ekspertlər isə musavat.com-a neftin 50 dollar həddinə bahalaşacağı təqdirdə, Azərbaycan üçün bunu nə vəd etdiyi barədə danışıblar.

**Ekspert Natiq Cəfərli qeyd edib ki, neftin yaxın zamanda 50 dollar olması real deyil:** "Bu, çətin ki, baş versin. Əgər olarsa, təbii ki, ölkəyə valyuta axını artacaq, bu da iqtisadiyyata da, manata da müsbət təsir edəcək. Amma manatın özünü tam rahat hiss etməsi üçün qiymətin 70-80 dollar olması lazımdır, çünki bizdə hasilat da azalır".

**Ekspert Fikrət Yusifov isə qeyd edib ki, neft 50 dollar ola bilər:** "Dünya bazarlarında neftin qiymətləri ətrafında son bir aya yaxın vaxt ərzində baş verənlər deməyə əsas verir ki, bu ilin ortalarından etibarən bu qiymətlərin 50 dollar və ondan bir qədər də artıq olması gözləniləndir. Qiymətlərin siyasi səbəblərlə nə qədər bağlılığı olsa da ən böyük həqiqət bundan ibarətdir ki, neft hasilatı ilə məşğul olan ölkələr artıq 2 ilə yaxındır neft sənayesinə əsaslı investisiya qoymurlar. Bu səbəbdən də kimin istəyindən asılı olmayaraq neft hasilatının azalması qaçılmazdır. Bu amil də cari ilin ortalarından neftin qiymətlərinin 50 dollar həddini keçməsi ehtimalını artırır. Azərbaycanın 2016-cı il dövlət büdcəsinin dürüstləşdirilmiş son variantında neftin 1 barel üçün qiyməti 25 ABŞ dolları səviyyəsində müəyyən edilib. Qiymətlərin bundan artıq ola biləcək hissəsi, Dövlət Neft Fondunun valyuta rezervlərinin artırılmasını təmin edəcəkdir. Digər tərəfdən isə Mərkəzi Bank son bir ildə baş verənlərdən düzgün nəticə çıxarıb, özünə kifayət qədər valyuta rezervləri yarada bilər. Hər iki səviyyədə valyuta rezervlərinin artımı beynəlxalq maliyyə müstəvisində Azərbaycanın reytinqinin yüksəlməsinə və nəticə etibarilə ölkəyə investisiya axınının artmasına gətirib çıxara bilər".

❑ **RÖYA**

# AVRO-2016-ya terror təhlükəsi...

## Qabil Hüseynli: "Həmin vaxta qədər terrorizmin əsas şəbəkələri məhv ediləcək"; bir ay davam edəcək nüfuzlu yarışı ölkəmizin də həyəcanla gözləməsinə səbəb nədir?

**İyunun 10-da Fransada start götürəcək futbol üzrə Avropa Çempionatına aylar qaldı. 24 ölkənin qalib olmaq uğrunda mübarizə aparacağı yarışı təkcə dünya ölkələri yox, Azərbaycan da həyəcanla gözləyir. Buna səbəb 8 ildən sonra qardaş Türkiyənin də mötəbər yarışda iştirak etməsidir.**

Bu turniri əvvəlkilərdən maraqlı edən digər səbəb ilk dəfə olaraq, çempionatda 24 ölkənin təmsil olunmasıdır. Belə ki, indiyə qədər 16 ölkə yarışda iştirak edirdi. Hər qrupda 4 ölkə olmaqla, ümumilikdə 6 qrup var. Çempionatda qruplar üzrə iştirak edəcək ölkələr aşağıdakılardır:

**A qrupu: Fransa, Rumıniya, Albaniya, İsveçrə**

**B qrupu: İngiltərə, Rusiya, Uels, Slovakiya**

**C qrupu: Almaniya, Ukrayna, Polşa, Şimali İrlandiya**

**D qrupu: İspaniya, Çexiya, Türkiyə, Xorvatiya**

**E qrupu: Belçika, İtaliya, İrlandiya, İsveç**

**F qrupu: Portuqaliya, Avstriya, İslandiya, Macarıstan.**

Çempionat Fransa-Rumıniya matçı ilə açılacaq. Görüş iyunun 10-da Sen-Denidəki "Stade de France" stadionunda oynanılacaq. Qrup mərhələsinin oyunları iyunun 10-22-də, 1/8 finallar iyunun 25-27-də, 1/4 finallar iyunun 30-da və iyulun 1-3-də, yarımfinallar iyulun 6-7-də, final oyunu isə iyulun 10-da keçiriləcək. Qruplar üzrə ilk iki yeri tutan millilər növbəti mərhələyə adlayacaqlar. Ən yaxşı göstəriciyə malik 4 ölkənin də növbəti tura adlamaq şansları olacaq. Avro-2016-nın final mərhələsində iştirak edən 24 yığma komandanın hər biri 8 milyon avro alacaq. Prizlərin ümumi məbləği 301 milyon avrodur. Çempion üçün 27 milyon avro nəzərdə tutulur. UEFA isə turnirin keçirilməsindən 1,95 milyard gəlir götürməyi hədəfləyir.

Göründüyü kimi, yay fəslinin iyun-iyul aylarında dünyanın gözü Fransaya dikiləcək. Bir-birindən maraqlı qarşılaşmaların gözlənildiyi yarış günlər yaxınlaşdıqca təhlükəsizliklə bağlı narahatçılıqlar artmaqdadır. Hazırda dünyanı ağuşuna alan terror aktlarının mötəbər yarış ərəfəsində çempionatın keçirildiyi ərazilərdə törədilmə ehtimalları səngimir. Çünki çempionat yaxınlaşır, amma terror aktları dayanmır. Xüsusilə ötən ilin noyabrında törədilən dəhşətli Paris terroru, eləcə də son 5 ayda Avropa Çempionatının əsas iştirakçılarından olan qardaş Türkiyədə həyata keçirilən 3 terror aktının Fransada davam etdiriləcəyi barədə gəzən şayiələr nüfuzlu turnirə kölgə sala bilər. Hazırda çempionat ətrafında əsas müzakirə olunan məsələ budur.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, terror təhlükəsi hər bir ölkə üçün hər zaman var:** "Xüsusilə böyük tədbirlər zamanı terror təhlükəsi daha real olur. Hazırda terrorun bir mənbəyi var, o da İŞİD-dır. Bu qruplaşmaya qarşı əməliyyatlar son vaxtlar daha intensiv şəkil alıb. İŞİD-in nəzarətində olan ərazilərin yarısı geriyə qaytarılıb. Rusiya-ABŞ arasındakı danışıqlar İŞİD-i yaxın iki ay ərzində tamamən yer üzündən silmək olacaq. Düşünürəm ki, bu terror təşkilatının şəbəkəsi ilə bağlı məlumatlar həddindən artıq şişirdilir. Futbol tədbiri zamanı təhlükəsizlik tədbirləri daha da artırılacaq. Brüssel terroru zamanı Belçika polisi ciddi nöqsanlara yol vermişdi. Terroru törədən iki terrorçu barədə Türkiyə tərəfinin onların İŞİD üzvü olduğunu deməsinə baxmayaraq, polis həmin şəxslərə diqqət yetirməmişdi. Təyyarə limanına daxil olan şəxslər rentgen yoxlamadan keçirilsə idi, belə hadisə baş verməzdi. Futbol oyunları zamanı bilet alan şəxslərdən mütləq şəxsiyyət vəsiqəsi tələb olunmalıdır. Üstəlik, onları xüsusi aparatlarla yoxladıqdan sonra stadiona buraxmaq lazımdı. Tamaşaçıların özləri də aktiv olmalıdır. Yanlarında şübhəli şəxs gördükdə mütləq xəbər verməlidirlər. Özləri də onları neytrallaşdırmağa çalışmalıdırlar. Ən vacib məsələ stadiona girən şəxslərin yoxlanmasıdır. Hətta su butulkalarının belə stadiona keçirilməsinə imkan verilməməlidir. Belə olan halda təhlükəsizliyi təmin etmək mümkündür. Bu çox mühüm yarışmadır. Güman etmirəm ki, həmin oyunları gözdən salacaq hər hansı bir təhlükə olsun. Bu oyunların gedişini pozacaq cəsarətdə şəxsin tapılacağına da inanmıram. Həmin vaxta qədər terrorizmin əsas şəbəkələri məhv ediləcək. Terrorizmi dünyaya yaymağa çalışan İŞİD qruplaşmaları isə sıradan çıxarılacaq".




**Yuxarıda qeyd etdiyimiz kimi, AVRO-2016 Azərbaycanda da maraqla gözlənilir. Ölkəmizin tanınmış simalarının nüfuzla çempionatda hansı ölkəyə azarkeşlik edəcəkləri ilə bağlı sorğu apardıq.**

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu Türkiyəyə azarkeşlik edəcəyini söylədi.**

**Müsavat başqanı Arif Hacılı da yalnız bir ölkəni çempionatda izləyəcəyini açıqladı:** "Şübhəsiz ki, Türkiyə yığmasına azarkeşlik edəcəm. Başqa azarkeşlik etdiyim bir yığma komanda yoxdur".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** AVRO-2016-da Türkiyə və İspaniyanı izləyəcəyini qeyd etdi.

**"AĞ blok"un təsisçisi Tural Abbaslı çempionat barədə bunları dedi:** "Təbii ki, ilk növbədə, qardaş ölkəmiz, cümhuriyyətimiz olan Türkiyəyə azarkeşlik edəcəm. Arzumuz Türkiyənin çempionatda ən layiqli yeri tutması, qalib olmasıdır. Qardaş ölkəmizin bu potensialı var. Baş məşqçi Fateh Terim və oyunçuların, eləcə də türkün əzmi istənilən ölkəyə qalib gələ bilər. Bunun nümunələri var. Dünya və Avropa üçüncüsü olmağı unutmaq olmaz. Ümid edək ki, hakim qərəzliyi ilə qardaş ölkə üzləşməz. Türkiyədən sonra Almaniya yığmasına azarkeşlik edirəm. Uzun illərdir bu belədir. Arzu edirəm ki, Türkiyə-Almaniya finalı olsun və qardaş ölkə tarix yazsın. Əsas olan gözəl futboldur".

**Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa Türkiyədən başqa digər ölkəyə azarkeşlik etməyin mümkünsüz olduğunu söylədi:** "İlk olaraq Türkiyə azarkeşlik edəcəyimiz ölkə olacaq. Əgər qardaş ölkə yarış ərzində məğlub olarsa, o zaman Almaniyaya azarkeşlik edəcəm. İnanıram ki, Türkiyə sona qədər çempionatda olacaq".

**Milli Dirçəliş Partiyasının sədri Fərəc Quliyev də Türkiyənin yanında olduğunu bildirdi:** "Başqa ölkəyə azarkeşlik edə bilmərəm. Türkiyənin qələbəsinə o qədər köklənmişəm ki, təsəvvürümdə başqa alternativ ölkə belə yoxdur".

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı bir qayda olaraq üç ölkəyə azarkeşlik etdiyini açıqladı:** "Əsas Türkiyə, Braziliya və İspaniyaya azarkeşlik edirəm. Bunlara eyni şəkildə azarkeşliyim var. Türkiyəyə, açığı, daha çox üstünlük verirəm. İspaniya və Braziliyaya yüksək oyunlarına görə azarkeşlik edirəm. Braziliya məlumdur ki, bu yarışda təmsil oluna bilməz. Ona görə də Türkiyə və İspaniya əsas azarkeşlik edəcəyim ölkələrdir".

**Yeni AXCP-nin sədri Razi Nurullayev bunları dedi:** "Demışdim ki, futbol fanatıyam, amma maraqlı oyunları və çempionatları izləyirəm. Türkiyə komandasına azərkeşlik edəcəm və 12 iyun Türkiyə-Xorvatiya qarşılaşmasında Türkiyənin udması üçün dua edəcəm. Türkiyə müəyyən mərhələdə oyundan çıxarsa, Xorvatiyaya azərkeşlik etmək fikrindəyəm. Bununla bərabər, Rusiya və Ukrayna komandası da mənə maraqlıdır. Onların da tez sıradan çıxmasını istəməzdim. Bununla bərabər, gözəl futbolu sevirəm, zövq almaq üçün Almaniya, İspaniya, İngiltərə, Fransa və İtaliya komandaları üçün də həyəcan yaşamaq fikrindəyəm. Qəlbim isə Türkiyənin çempion olması üçün döyünür".

❑ Cavanşir ABBASLI

# Qaz və işıqdan şikayət edən sakinlərə rəsmi cavab

## Bəzi ərazilərdə mavi yanacağın olmaması qaz sızıntılarına görə olub

**Martın 30-da səhər saatlarından etibarən Bakının bəzi ərazilərində, həmçinin bir sıra rayonlarda mənzillərə qazın verilməsində problemlər yaranıb.**

Bu barədə Bakı və bölgələrdə yaşayan sakinlər musavat.com-a məlumat veriblər. Bakının Xətai, Sabunçu, Qaradağ, Xəzər, Yasamal, Suraxanı rayonlarının bir çox qəsəbələrində təbi qazın verilişi tamamilə dayandırılıb. Bölgələrdə- Ağdaş, Mingəçevir, Tovuz, Şəmkir, Masallı, Xaçmaz rayonlarında da bəzi kəndlərdə təbii qazın verilişində problemlərin olduğu bildirilir.

Təbii qazla yanaşı, elektrik enerjisinin də verilişində problemlərin olması barədə sosial şəbəkə istifadəçiləri məlumatlar paylaşıblar.






Masazır qəsəbə sakini Surxay Niftəliyev deyir ki, təbii qaz bir neçə gündür ki, fasilələrlə verilirdi. Dünən səhər saatlardan isə tamamilə kəsilib. Elektrik enerjisi isə 14:30 radələrindən kəsilib.

Vətəndaşların çoxsaylı şikayətləri ilə bağlı hər iki qurumun mövqeyini öyrəndik.

**"Azəriqaz" İB-in mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayev musavat.com-a açıqlamasında bildirdi ki, təbii qazın verilməsində yaranan problemlər qaz sızmasının baş verdiyi ərazilərdə təmir işlərinin aparılması ilə bağlıdır:** "Hazırda qaz olmayan ərazilərdə qaz sızması müəyyən olunduğundan həmin ərazilərdə təmir işləri aparılır. Heç bir qəza hadisəsi baş verməyib".

**Qurumun rəsmisi təbii yanacağın verilməsi ilə bağlı yaranan problemlə bağlı əvvəlcədən xəbərdarlıq edilməməsinin səbəbini belə izah etdi:** "Həmişə qəza baş verən ərazidə görüləcək təmir işləri haqda əvvəlcədən məlumat yayırıq. Ancaq qaz sızmasını əvvəlcədən müəyyən etmək olmur. Buna görə də qaz sızması olan kimi təbii qazın verilişi dayandırılır".

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev musavat.com-a açıqlamasında bildirdi ki, Bakıda və bölgələrdə elektrik enerjisinin verilməsində heç bir ciddi problem yaşanmayıb:** "Paytaxtda və bölgələrdə heç bir qəza hadisəsi baş verməyib. Yalnız fərdi yaşayış evlərində ola bilər ki, hansısa problemlər yaransın. Ayın sonu olduğundan bəlkə də borclu abonentlərin elektrik enerjisi kəsilib. Səbəblərdən biri də bu ola bilər. Yalnız Masazır qəsəbəsində, İlyas Bayramov küçəsində fərdi yaşayış evlərində 2 saatdan çox işıq olmayıb. Bu da elektrik xətlərindəki problemlə bağlıdır. Bu da həll ediləcək".

T.Mustafayev bəzi rayonlarda qazın verilməsində yaşanan problemlərə görə elektrik enerjisindən istifadəyə tələbatın artdığını, bunun da bəzi bölgələrdə kiçik də olsa problemlər yaratdığını qeyd etdi.

❑ İ.MURADOV

**Dağlıq Qarabağ probleminin həllində Rusiyanın əsas tormozlayıcı qüvvə olduğu və işğalçı Ermənistanın arxasında dayandığı bir daha öz təsdiqini tapmış oldu. Kremlə yaxın "Valday" ekspert qrupunun hazırladığı və təzəcə geniş ictimaiyyətə təqdim edilən hesabatın Dağlıq Qarabağ münaqişəsinə aid hissəsi buna şübhə yeri saxlamır.**





# Putin Azərbaycana satılan silahlardan danışdı

## Kremlin ikili standartı: Rusiya ölkəmizə həm silah satır, həm də Bakını "Gürcüstan ssenarisi" ilə hədələyir - nonsens? Düşmən ölkənin eksperti: "Həmin ərazilər Azərbaycan torpaqlarıdır, zaman xeyrimizə işləmir..."

Xəbər verdiyimiz kimi, "Beynəlxalq hədələr - 2016" adlı həmin sənəd Rusiya üçün əsas strateji hədələrdən bəhs edir və onlardan biri kimi Qarabağ konflikti göstərilir.

**Sitat:** "2016-cı ildə Rusiya üçün sıravi vətəndaşlara elə də aydın olmayan hədələr də var. Söhbət öncəliklə Dağlıq Qarabağda konfliktin qızışmasından gedir - hansı məsələ ki, Suriya və Ukrayna böhranları üzündən ikinci plana keçib, lakin əsla az təhlükəli deyil. Son zamanlar orada artilleriya qurğularından istifadə olunmaqla atışmalar güclənib, tərəflər əsl silahlanma yarışına girib. Hadisələrin belə inkişafı Bakı və Moskvanın maraqlarının kəskin toqquşmasına, Rusiyanın Ermənistan tərəfdə müharibəyə qoşulmasına və 2008-ci il "Gürcüstan ssenarisi"nin təkrarlanmasına gətirə bilər. Bu isə Rusiya-Türkiyə münasibətlərinin pisləşməsini vəd edir, ona görə ki, Moskva və Ankara münaqişənin müxtəlif tərəflərini dəstəkləyir - müvafiq şəkildə Ermənistanı və Azərbaycanı".

***

Ötən sayımızda qeyd elədiyimiz kimi, bu, artıq rəsmi Bakını "Gürcüstan ssenarisi" ilə açıqca hədələməkdir - baxmayaraq ki, Azərbaycan Rusiyanın əsas silah alıcılarından biri olaraq qalır. Yeri gəlmişkən, srağagün Rusiya prezidenti Vladimir Putin Azərbaycana satılan silahlardan da danışıb.

Nijniy Novqorodda, silah ixracına dair məsələlərin müzakirə olunduğu iclasda Putin bəyan edib ki, Rusiya silahlarına tələbat sürətlə artır (virtualaz.org). "Kommersant" qəzetinin yazdığına görə, bu zaman Rusiya lideri Azərbaycanla 2011-ci ildə imzalanmış müqaviləyə də istinad edib. Həmin müqaviləyə əsasən, Azərbaycan Rusiyadan T-90S tankları, BMP-3 piyada döyüş maşınları, TOS-1A "Solntsepyok" ağır odsaçan sistemləri və digər hücum silahları alıb.

"Kommersant" iclasın təfərrüatlarını açıqlamasa da, Putinin müqavilənin icrasından narazılığını qeyd edir... 

"Kommersant" iclasın tənqidlərsiz də ötüşmədiyini yazıb. Belə ki, Putin 2011-ci ildə Fransadan iki "Mistral" vertolyotdaşıyan gəmisinin alınmasına dair bağlanmış müqavilənin şərtlərinin Rusiya üçün tam əlverişsiz olduğunu deyib. İkinci məsələ isə imzalanmış müqavilələrin yerinə yetirilməsi ilə bağlı texniki problemlərlə, konkret olaraq Azərbaycana BTR-82A zirehli transportyorlarının göndərilməsi ilə bağlı olub. Lakin qəzet Putinin bu məsələdə məhz nədən narazı qaldığını yazmır.

Yada salaq ki, martın əvvəllərində Rusiya baş nazirinin müavini, hərbi sənayeni kurasiya edən Dmitri Roqozin "Rosoboroneksport"un nümayəndələri ilə Bakıya qəfil səfər edib. "Kommersant" iddia edib ki, səfər Azərbaycan tərəfinin sifariş verdiyi silahlara və texnikaya görə ödənişləri gecikdirməsi ilə əlaqəlidir. Belə ki, sifariş verilən texnika gəmilərə yüklənərək göndərilib, ancaq pulu ödənilmədiyindən boşaldılmır. Lakin Azərbaycan tərəfi ödənişlərlə bağlı heç bir problem olmadığını bəyan edib.

Xarici işlər naziri Elmar Məmmədyarov "Kommersant"a müsahibəsində deyib ki, problem bəzi silahların texniki parametrlərinin müqavilədə göstərilənlərə uyğun gəlməməsindədir və Roqozin bu problemin tezliklə aradan qaldırılacağına dair vəd verib. Habelə dünən məlum olub ki, Roqozinin Bakıya səfərindən sonra Azərbaycan Müdafiə Nazirliyinin Silah və Texnika İdarəsinin rəisi, polkovnik Yaqub Əhədov vəzifəsindən azad edilib, barəsində cinayət işi qaldırılıb. Onun Rusiya ilə silah müqaviləsindən hansısa formada korrupsiya məqsədi ilə yararlanmaq istədiyi bildirilir.

***

Göründüyü kimi, Azərbaycanla Rusiya arasında silah ticarəti Kreml üçün önəmli məsələlərdən olaraq qalır. Ancaq əfsuslar olsun ki, Moskvanı Azərbaycanın əlverişli silah alıcısı olması faktı Dağlıq Qarabağ münaqişəsi kontekstində az maraqlandırır. Əks halda, müharibə variantında Rusiyanın Ermənistan tərəfdə yer alacağı hədəsi səslənməzdi. Belə çıxır, Rusiya ölkəmizə həm silah satır, həm də bizi "Gürcüstan ssenarisi" ilə hədələyir...

Həmçinin Qarabağ münaqişəsinin qızışacağı təqdirdə Türkiyə və Rusiyanın üz-üzə gələ biləcəyi haqda rusiyalı ekspertlərin ehtimalı da gerçəkdir. Əslində sonuncu fakt konfliktin həllində Moskva və Ankaranın nə dərəcədə mühüm rol oynaya biləcəyinin göstəricisidir. Təəssüf ki, "Su-24" təyyarə insidentindən sonra Türkiyə-Rusiya münasibətləri böhrana girməsi bu yöndə ən kövrək ümidləri də basdırıb.

Bir şey dəqiqdir ki, Rusiya Güney Qafqazdan elə-belə çıxmayacaq. Dağlıq Qarabağ ixtilafının həll olunmamış qalması isə Kremlin regionda möhkəmlənməsi üçün yeganə vazkeçilməz silahdır. Bu xüsusda Rusiya XİN rəsmisi Mariya Zaxarovanın ötən həftə söylədiyi **"Rusiya Dağlıq Qarabağ konfliktinin həllini səmimi şəkildə istəyir"** sözləri gerçəyi kamifulyaj eləmək cəhdi olmaqla yanaşı, ən yüngül təzyiqə belə dözümsüzdür.

***

**Bu arada erməni ekspert Armen Bədəlyan düşmən tərəfi təmsil eləsə də, Qarabağ məsələsi ətrafında yaranmış vəziyyətdə Azərbaycanın tutduğu mövqeyə haqq qazandırıb. O, həmsədr dövlətlərin Dağlıq Qarabağ münaqişəsinə yanaşmasına diqqət çəkərək deyib:** "Onların hər biri öz marağından çıxış edir və bu maraqlar üst-üstə düşmür. Buna görə də nəticə gözləmək mümkün deyil. İndiki mərhələdə seçkiyə hazırlaşan ABŞ seçki bitənədək burada sabitliyin olmasında maraqlıdır. Rusiyanın da öz maraqları var. Rusiya Azərbaycanla münasibətlərini korlamaq istəmir. Üstəlik, Azərbaycan Rusiyadan böyük həcmdə silah alır. Onların arasında biznes maraqları da mövcuddur".

**Politoloq Bakının mövqeyinin də məntiqli olduğunu söyləyib:** "Azərbaycanın mövqeyi bəllidir: sərhəddə vəziyyətin gərgin olmasını istəmirsinizsə, işğal altındakı əraziləri geri qaytarın. Azərbaycan anlayır ki, əgər bu vəziyyətdə atəşkəsə nəzarət mexanizmi qəbul




olunarsa, bu, dolayısı ilə həmin ərazilərin Ermənistanın nəzarət etdiyi ərazilər kimi tanınması demək olacaq. Azərbaycan isə bununla razı deyil. O öz ərazisində atəşkəsin tətbiqilə niyə razılaşsın ki? Nəhayət, unutmayaq ki, həmin ərazilər de-yure Azərbaycan torpaqlarıdır. Odur ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə hər hansı əlavə mexanizmlərin tətbiqinə qarşı olması təbiidir. Belə çıxır, erməni tərəfi əraziləri işğal edir və Azərbaycanın torpaqları geri qaytarmağa cəhd göstərə bilməməsi üçün orada hansısa mexanizmlər işə salınır. Məsələyə Bakının nöqteyi-nəzərindən baxsaq, mexanizmin qəbul olunmaması məntiqlidir".

**Onun qənaətincə, atəşkəsin qorunması ilə bağlı yeni beynəlxalq mexanizmin tətbiqi hər hansı nəticə verməyəcək:** "Azərbaycan həmin sistemi pozarsa nə baş verəcək? Azərbaycana qarşı sanksiyalar tətbiq ediləcək? Azərbaycan Avropa İttifaqını təbii qazla təmin edən ölkələrdən birinə çevrilir. Yaxın vaxtlarda Bakı-Tiflis-Qars dəmir yolu istismara veriləcək və bu, Avropanı Mərkəzi Asiya və Uzaq Şərqə bağlayacaq. Demək, Avropa əlbəttə ki, Azərbaycanla münasibətlərini gərginləşdirmək istəməyəcək. Mexanizm tətbiq olunarsa və Azərbaycan onun tələblərini pozarsa, ən yaxşı halda ona "rejimi pozma" deyəcəklər. Lakin bu, Azərbaycana qarşı hər hansı ciddi addımların atılması ilə nəticələnməyəcək. Sərhəddəki gərginlik, təcridetmə, ticarət əlaqələrin olmaması bizə qarşı olan addımlardır. Səbəb isə Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasıdır. Nə zaman ki, problem həll olunacaq, qalan məsələlər də qaydasına düşəcək. Xəstəliyin nəticələrini aradan qaldırmağa çalışmaq yox, onun özünü müalicə etmək lazımdır".

**Erməni ekspert habelə, vəziyyətin dalana dirənməsi fikri ilə razılaşmır:** "Vəziyyət dalana dirənməyib. Hər şey kimin daha sürətlə inkişaf edəcəyindən, təsir mexanizmlərinə malik olacağından asılıdır. Məhz həmin tərəfin maraqları nəzərə alınacaq. Yaşananlar isə Azərbaycanın öndə olduğunu göstərir. Ermənistandan fərqli olaraq, o, AŞ PA-da qətnamələr qəbul etdirə bilir, ölkə iqtisadiyyatı inkişafdadır, Azərbaycan ərazisində regional əhəmiyyətli nəqliyyat infrastrukturu yaradılır. Münaqişə zonasındakı vəziyyət 100 il belə davam etməyəcək. Və sonra. Unutmayaq ki, Ermənistandan əhalinin köçü getdikcə artır və bu, gələcəkdə əsgərlərin sayına da təsir edəcək. Azərbaycan isə oturub gözləmir. O çalışır ki, bu dövrdən öz xeyrinə istifadə etsin və Ermənistandan fərqli olaraq, buna nail olur".

YENİ MÜSAVAT
N 67 (6388) 31 mart 2016

# Keçmiş arvadından müğənni haqda şok sözlər: "Qadın paltarları geyinir, dırnaqlarını uzadır..."

## Nurlan Kərimovun sabiq həyat yoldaşı onun dələduz olduğunu, övladlarına baxmadığını deyir; qarşı tərəf isə "uşaqların atası mən deyiləm" söyləyir

**Mətbuatda, mediada özünü tanınmış psixoloq, müğənni kimi təqdim edən Nurlan Bəylərəoğlu Kərimovun keçmiş həyat yoldaşı Aygün Əmiraslanova redaksiyamıza müraciət edib. Deyir 3 uşağı ilə çarəsiz qalıb. Şikayətçinin sözlərinə görə, keçmiş həyat yoldaşının maddi imkanı, avtomobili, evi olsa da məhkəməyə saxta sənədlər təqdim etməklə aliment ödənişlərindən yayına bilir:**



"Onunla 2005-ci ildə ailə həyatı qurmuşam, bu izdivacdan iki övladım var. Nurlan Kərimov əvvəllər İlham Mirzəyevin yaxın dostu, Faiq Ağayevin isə prodüseri olub. Övladlarımız olduqdan sonra Nurlanın hərəkətlərində qeyr-adilik görməyə başladım. O, saçlarını açaraq saraltdı, dırnaqlarını uzadıb manikür etdirdi, bədəninə yapışan narıncı rəngdə qadın paltarlarına bənzər geyimlər geyinməyə başladı. Gecələr evdən çıxıb gedir, bir də səhərlər gəlirdi. Ondan bu barədə soruşanda isə deyirdi ki, restoranlarda müğənnilik edir. Lakin onun işlədiyi restoranlara gedib haqqında öyrənməyə başladım, mənə təsdiqləyib dedilər ki, həqiqətən də o, kişiliyə yaraşmayan hərəkətlər edir.

Hər kəsə pul borclu idi. Özünü molla kimi təqdim edib kimlərdənsə borc pul alırdı. Tez-tez telefon nömrəsini dəyişdiyindən onu tapmaq mümkün olmurdu. Mənim də qızıllarımı bir dəfə girov qoyaraq çoxlu miqdarda borc götürmüşdü. Bundan xəbər tutan kimi həmin borcu ödəyib qızıllarımı geri qaytara bilmişdim. Evdən də oğurluq etməyə başlamışdı.

Bütün bu olanlardan təngə gəlib 2008-ci ildə ondan ayrıldım.

Məhkəmə aliment məsələsi ilə bağlı qərar qəbul etsə də Nurlan hər cür bəhanə ilə ödənişlərdən yayınmağa çalışır, məhkəməyə saxta sənədlər təqdim edir. Guya onun avtomobilinə əl qoyulub, kişiliyi və psixoloji durumu ilə bağlı xəstəlikləri var və sairə. Hətta məhkəməyə müraciət edərək atalıqdan imtina etmək istəmişdi. Guya uşaqların sənədlərini mən rüşvət verməklə almışam. Lakin məhkəməyə sənədlər təqdim etdim və məlum oldu ki, uşaqlara sənəd Nurlanın iştirakı ilə verilib.

Tez-tez yaşadığı yerləri dəyişdiyindən alimenti haradan alacağımı bilmirəm. İndi guya Xətai rayonunda yaşayır. Lakin Xətai Rayon İcra İdarəsinin nümayəndəsi bu məsələ ilə bağlı heç bir tədbir görmək istəmir. Tələb edəndə ki, deyirlər ki, "biz cibimizdən sənə pul verəsi deyilik ki?""

**Aygün Əmiraslanovanın sözlərinə görə, Nurlan Kərimov "Specail" psixologiya mərkəzinin rəhbəri olmasına baxmayaraq onun heç bir təhsili və lisenziyası yoxdur:**

"O, məhkəməyə müraciət edib ki, psixoloji problemləri olduğundan əsəb dispanserində müalicə alıb. Psixoloji problemləri olan bir adam necə psixologiya mərkəzində işləyə bilər? Guya Türkiyənin Marmara Universitetində təhsil alıb. Lakin əlimdə sənədlər var ki, o, həmin universitetə daxil olduqdan sonra təhsilini yarımçıq saxlayaraq Pedaqoji Universitetə daxil olub. Qısa zamanda isə həmin universitetdən qovulub. Təhsil Nazirliyinə də bu barədə müraciət etmişəm. Rəsmi surətdə bildirdilər ki, belə bir adam ölkədə ali təhsil almayıb.

Onun "qanunsuz toplantı keçirmək" maddəsi ilə məhkumluğu da var. İki şəxsiyyət vəsiqəsi olmağı ilə bağlı isə Dövlət Yol Polisində məlumat var.

Sizin qəzetiniz vasitəsilə aidiyyəti orqanlara səslənib xahiş edirəm ki, övladlarımın aliment məsələsi ilə bağlı mənə köməklik etsinlər. Aylardır ki, aliment ala bilmirəm. Özüm qulağımda olan xəstəliklə əlaqədar 3-cü qrup əliləm, eşitmə problemim var. Əvvəllər ibtidai sinif müəlliməsi işləmişəm. Lakin getdikcə sağlamlığımda yaranmış problemlərə görə indi işsizəm. Hazırda 3 uşaqla xəstə anamın himayəsində qalıram. Uşaqlarımın ikisi xəstəxanaya düşüb. Onların müalicəsi üçün heç bir maddi imkanım yoxdur".

**Nurlan Bəylərəoğlunun vəkili Məmməd Elçin Məmmədoğlu "Yeni Müsavat"a açıqlama verib. Vəkilin sözlərinə görə, iki azyaşlı uşaq heç də Nurlan Bəylərəoğlunun övladları deyil, ona qarşı edilən hədə-qorxular üzündən məcbur qalaraq uşaqlara atalıq verib:**

"Aygün xanımı bütün Azərbaycan tanıyır. Onun qabağına kim çıxır, şikayət verməsindən hamı xəbərdardır. Suraxanı Rayon Polis İdarəsinə bir zəng etsəniz deyəcəklər ki, Aygün Əmiraslanovanın 31 ədəd şikayət ərizəsi var. Bizdən, aşpazdan, qonşudan, süpürgəçidən və sairə... O, Nurlanın xanımı deyil. İfadələrimizi bir qədər korrektə edək. Hələ də ona xanım deyə müraciət edirik, çünki hörmət edirik. Yalan olaraq iddia edir ki, iki uşaq Nurlanındır və məhkəmə qərarı ilə aliment alır. Hazırda onun 4 uşağı var. Birinci uşaq kimdəndir - heç bəlli deyil. İndi bir balaca uşağı var, o da başqa şəxsdəndir. Bu adamın işi-gücü ancaq kimlərisə şərləyib, ondan uşaq peydahlayıb ondan-bundan aliment alıb həyatını sürməkdir.

Nurlan həmin xanımla 2006-cı ildə ünsiyyətdə olub, bir gecəlik. Onunla heç bir ailə münasibətində olmayıb. Şəkillərin də hamısı montajdır. Xanımın işi-gücü ancaq bu məsələnin üstündə işləməkdir. Polisin vasitəsi və hədə-qorxu yolu ilə uşağına atalıq alıb. Bununla bağlı Suraxanı Rayon Məhkəməsində məhkəmə prosesimiz var. Və həmin məhkəmə prosesi gedir".

**Vəkil Nurlan Bəylərəoğlunun heç bir təhsili olmadan özünü psixoloq kimi təqdim etməsi barədə səslənən iddialara da aydınlıq gətirib:**

"Nurlan psixoloq şirkətini yaradıb və həmin şirkətin rəhbəri kimi fəaliyyət göstərir. Orda həkimlər münasib qiymətlərlə əhaliyə xidmət göstərirlər. Onun özü də təhsil almış bir şəxsdir. Hansı yerdə oxuduğu barədə məlumatım yoxdur. Yalnız bilirəm ki, Türkiyədə təhsil alıb. Onu da qeyd edim ki, psixoloq fəaliyyəti üçün də hansısa lisenziya tələb olunmur".

**Vəkil Nurlan Bəylərəoğlunun əsəb dispanserində müalicə aldığını təsdiqləyib:**

"Aygün Əmiraslanovanın əsassız ittihamları, bəhanələri onu və ailəsini narahat edir. Buna görə də bu il fevralın 26-da əsəb sarsıntısı keçirərək təcili yardımın köməyi ilə 2 saylı Əsəb Dispanserinə yerləşdirilmişdi. Martın 16-da isə dispanserdən çıxıb".

**Vəkilin dediyinə görə, Nurlan Bəylərəoğlu hazırda əsəb pozğunluqları olduğu üçün yenidən xəstəxanaya yerləşib.**

**Qeyd edək ki, özünü psixoloq kimi təqdim edən Nurlan Bəylərəoğlu ötən ildən başlayaraq müğənni kimi də fəaliyyət göstərir.**

❑ Xalidə GƏRAY








## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Bahar fəsli başladı. Bu, həm də qarderobumuzda olan qalın, rəngsiz, cansıxıcı qış geyimlərindən qurtulmağın zamanının gəlməsi deməkdir. Gözəl görünmək, diqqətdə olmaq üçün tələb olunan əsas şərtlərdən biri də gözəl geyim tərzidir. Seçdiyimiz gündəlik paltar rəngləri ilə həmin günün ruh halını təyin etməyə cəhd göstəririk. Mütəxəssislər isə hər çıxışlarında xanımlara dəblə ayaqlaşmaqla yanaşı, onlara yaraşanı geyinməyi tövsiyə edirlər.**

# Bu ilin yaz-yay geyimləri bizi 20-30 il əvvələ aparacaq...

## Stilist Samir Əliyev: "Azərbaycan kişiləri kostyumsuz yaşaya bilmir"



Maraqlıdır, 2016-cı ilin yaz-yay geyim kolleksiyasında xanımları hansı tərzdə geyimlər, rənglər gözləyir?

Suallarımıza cavab almaq üçün tanınmış **stilist Samir Əliyevə** (Samiraldo) müraciət etdik. Stilist bu il daha çox açıq rənglərin dəbdə olacağını dedi: "Bu ilin yaz-yay kolleksiyasında daha çox açıq rənglər dəbdə olacaq. Sarı, narıncı, qırmızı, yaşıl, göy, ağ kimi açıq rənglər yaşından asılı olmayaraq insanı həm gözəl, nurlu göstərir, həm də yüksək əhval-ruhiyyə yaradır. Ümumiyyətlə, yaz və yay gözəlliyi, al-əlvanlığı sevir. Yayda bütün geyimlərin gözəlliyi, ən gözəl rəngləri nümayiş etdirilməlidir. Çünki qışda biz bunu edə bilmirik. Qışda yalnızca qara, qəhvəyi, boz rənglərdən istifadə edə biliriksə, yayda ürəyinizdə qalan bütün al-əlvan rənglərdən istifadə də bilərsiniz. Amma qəribədir ki, bu il küpurdan olan geyimlər də dəbdə olacaq. Bu küpurlar ya qara, qırmızı və ya ağ olmalıdır. Başqa rəngdən olan küpur pis görünər. Mən bu il dizaynerlərin 10 kolleksiyasına fikir verdim. Kolleksiyada yay geyimlərində çox zövqsüz, bir-birinə uyğun gəlməyən rənglər vardı. Yəqin ki, dizayner bunu əhval-ruhiyyəsi olmayan vaxtda yaradıb. Amma buna baxmayaraq, maraqlı görünürdü. Məsələn, kolleksiyada olan geyimlərdən birində çanta qəhvəyi, ayaqqabı ağ, geyim isə al-əlvan rəngdə idi. Rənglər bir-birinə heç uyğun gəlmir. Xanımlarımız gəzintiyə çıxarkən sadə sarafan geyinib muncuqlu aksesuarlar taxsalar, daha dəbli görünəcəklər. Bizim xanımlarımız daha çox ziyafət qiyafələri geyinməyi və qızıl taxmağı sevir. Hətta küçələrdə belə insanları ziyafət qiyafəsində görmək olur ki, bu da çox gülməli görünür. Halbuki hansısa sadə, ala-bula rəngdə olan sarafanı sadə muncuqlarla geyinsələr daha dəbli görünərlər"

**Yaz-yay kolleksiyasında uzun güllü və şanel stilində olan ətəklərin dəbdə olacağını deyən stilist bu ilin dəbinin bizi daha çox 1990-2000-ci illərə aparacağını dedi:** "Yayda əsasən uzun, üzərində gül elementləri olan ətəklər dəbdə olacaq. Amma işə və ya hansısa ciddi məclislərə gedən xanımlar şanel stilində olan əyri, karandaş yubkalar geyinə bilərlər. Çünki şanel stilində olan ətəklər bu il ən çox dəbdə olan ətəklərdir. Ümumiyyətlə isə bu ilin dəbi bizə 1990 və 2000-ci illəri xatırladacaq. Çünki lasinlər, yubka şalvarlar ən çox 1990-1995-ci illərdə geyilib. İnsanlar bu dəbdən istifadə etməyə əvvəlcə qorxsalar da, sonradan onu qəbul edirlər. Ancaq dəb hər an, hər dəqiqə dəyişilir. Təbii ki, dəbli görsənmək insanlardan da asılıdır. İnsan var ki, çox bahalı geyinir, amma o geyim ona yaraşmır. İnsan da var ki, çox ucuzvari geyinir, amma ona yaraşır. Yəni dəbli görsənmək insanın iç dünyasından, zövqündən irəli gəlir. 3 ildir ki, dəbdən düşməyən trapes şalvarlarla bu il vidalaşmalı olacaqsınız. Bu il daha çox enli, qısa variantda olan şalvar yubkalar dəbdə olacaq. Təbii ki, buna da uyğun kofta, ayaqqabı olmalıdır. Bu yaz-yay kolleksiyasının ayaqqabıları daha çox 80-cı illərin ayaqqabılarının dəbini xatırladacaq. Ən yaxşı dizaynerlər ucu yumru, kobud, altı əyri ayaqqabılardan istifadə edirlər ki, bu da çox maraqlı görünür. Bu cür kobud şəkildə olan ayaqqabıları uzun, hətta qısa ətəklərlə geyinsələr daha maraqlı və dəbli görünər".

**2016-cı ilin yaz-yay saç düzümləri və makiyaj modellərinə gəlincə isə stilist bu il uzun təbii saçların və qalın qaşların dəbdə olacağını bildirdi:** "Bu il daha çox uzun təbii saçlar dəbdə olacaq. Saçların ucunda ombre şəklində yay əhval-ruhiyyəli çəhrayı, göy, berj, yəni pudra rənglərinə boyamaq daha dəbli görünəcək. Bu stil əlbəttə ki, cavan qızlara aiddir. Kosmetikalara gəlincə, bu yay qaşlar və dodaqlar önə çıxarılacaq. Yay olduğuna görə qaşlar qalın olmalıdır. Qaşlar nə qədər qalın olsa, bir o qədər dəbli görünəcək deməkdir. Qaşla yanaşı, ombre şəklində dodaqlar dəbdə olacaq. Dodağın demək olar ki, dörd rəngi olmalı və bu rənglər oynamalıdır. Dodaqla qaş üst-üstə gəlməli və gözə çarpmalıdır. Amma gözlər və yanaqlar gözə çarpmalı deyil. Uzun saçlar dəbdə olduğuna görə sırğalar o qədər də önəmli olmayacaq. Yəni xanımlarımız sırğa taxa da bilərlər, taxmaya da. Ancaq yay olduğuna görə xanımlar saçını palma və yuxarıdan yığa bilər. Belə olan təqdirdə sırğalar görünməlidir. Bu sırğalar qızıldan yox, daşlardan və sadə muncuqlardan olmalıdır".

Çantalara gəlincə isə stilist bu il daha çox üzərində aksesuar elementləri, daşlar olan kvadrat formalı çantaların dəbdə olacağını dedi. Böyük və ya balaca olmasından asılı olmayaraq kvadrat formalı çantaların dəbdə olduğunu deyən S.Əliyev dizaynerlərin bu il əhval-ruhiyyəni ən çox çantalara verdiyini bildirdi.

**Kişilər üçün isə daha çox açıq qəhvəyi rəngli kostyumların dəbdə olacağını deyən stilist kişilərin həddindən artıq kostyuma meylli olmasını təqdirəlayiq hesab etmədiyini dedi:** "Bizim kişilər daha çox iş adamları olduğuna görə işə, toya, diskotekaya, hətta bəzən dənizə belə gedəndə kostyum geyinirlər. Azərbaycan kişiləri demək olar ki, kostyumsuz yaşaya bilmir. Hətta kostyum geyinməsələr belə kostyumun şalvarını geyinəcək və ya qalstuk taxacaqlar. Amma kostyumların da rəngləri var. Bizim kişilər daha çox ağ, qara, boz və göy kostyumları xoşlayırlar. Amma dizaynerlər bu il açıq qəhvəyi, yaşıl, güllü, bir sözlə, rəngarəng kostyumlar buraxıblar".

❑ **Günel MANAFLI**

# İcra hakimiyyəti sakinləri qəzalı binadan uçan məktəbə köçürür

## Xızıda 6 ailəni "yağışdan çıxarıb yağmura salırlar"







**Xızı rayonunda 6 ailə yaşadığı binadan çıxarılır. Sakinlər deyir ki, onları yaşadıqları binadan daha şəraitsiz və qəzalı vəziyyətdə olan binaya köçürürlər. Bu barədə məlumatı musavat.com saytına rayonun Turqut Özal küçəsində yerləşən binanın sakinləri veriblər. Bina sakini Aysel Novruzovanın sözlərinə görə, bir neçə gün əvvəl Xızı Rayon İcra Hakimiyyətinin əməkdaşları gələrək sakinlərin binadan çıxmasını tələb ediblər. Əvvəlcə binanın təmir olunacağı deyilsə də sonradan bu qərar dəyişdirilərək binanın boşaldılması ilə əvəzlənib. Binanın boşaldılması üçün bina sakinlərinə 3 gün vaxt verilib.**



A.Novruzova musavat.com-a bildirdi ki, 2 mərtəbəli yataqxanada 6 ailə yaşayır. Sakinlərə köçmək üçün rayonun 3 ayrı kəndindəki məktəb və bağça binaları təklif olunub.

"Həyat yoldaşım 20 ildir bu mənzildə yaşayır. 6 ildir biz ailəliyik. Körpə uşaqla hara gedək? Biz yaşadığımız vəziyyətdən narazı deyilik. İndi köçürüləcəyimiz yerdən narazıyıq. Bina qəzalı vəziyyətdədir deyirlər. Ancaq bizi köçürdükləri bina əvvəllər məktəb olub. Həmin məktəb üçün yeni bina tikilib. İstifadə olunmayan, qəzalı vəziyyətdə olan həmin məktəbə bizi köçürmək istəyirlər. İstifadəyə yararsız, uzun müddətdir boşaldılan məktəbdə insan yaşayar?"- deyə bina sakinləri narazılığını qeyd edir.

Adıçəkilən binada yaşayan 6 ailənin 4-ü rayonun Tıxlı kəndindəki məktəb binasına, digər ikisi isə Fındığan və Xələnc kəndindəki yarım tikililərlə köçürüləcək. Sakinlərin sözlərinə görə, kəndlərdəki tikililər köhnə bağça və məktəb binalarıdır.

**Sakin Aysel Novruzova deyir ki, onlara 3 gün ərazində binanı boşaltmaları deyilib, ancaq artıq mənzillərdən birinin qazı kəsilib:** "Havanın yağışlı olduğunu deyib üç gün vaxt verdilər. İcra başçısının qəbulunda olmaq istədik. Bizi icra başçısının müavinləri qəbul etdi. Deyirlər, hara şikayət edirsiniz edin. Bu yataqxanadakı mənzillər ailələrə kənd soveti tərəfindən verilib. Hamımız imkansız ailələrik. Əksər ailələrin gəlir mənbəyi yalnız 120 manat pensiyadır. Mən özüm şəhərdə xadimə işləyirəm. İş olanda işləyirəm, olmayanda yox. İndi rayona yaxınıq. Bəs biz gedib ucqar kənddə nə edəcəyik? O vəziyyətdə necə yaşayacağıq? Biz məktəb binasını gedib görmüşük. İnsanı o tikiliyə necə göndərmək olar? Xahiş edirik bizim səsimizi ölkə rəhbərliyinə çatdırın. Prezident İlham Əliyevə məktub yazmaq istəyirik. Ancaq rayondan gündə bir dəfə Bakıya avtobus gedir. Bu gün avtobusa çata bilmədik".

**Sakinlərin şikayəti ilə bağlı icra hakimiyyətinin də mövqeyini öyrənmyə çalışdıq. İcra başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Azər Əlizadə musavat.com saytının müxbirinin sualını dinləsə də nahar fasiləsindən sonra cavab verə biləcəyini dedi: "Sonra zəng edərsiniz. İndi yanımda adam var".**

**Sonra isə A.Əlizadə zənglərimizə cavab vermədi.**

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT

Son səhifə

N 67 (6388) 31 mart 2016

# Stresdən kirpinin iynələri töküldü

Britaniyanın Hartfordşir qraflığında Derek ləqəbli kirpinin stresdən iynələri tökülüb. İynələrinin yenidən çıxması üçün ona özəl masaj tətbiq olunub. Veterinarların özəl baxımından sonra kirpinin durumu düzəlib. Lenta.ru saytının xəbərinə görə, kirpi yerli evlərdən birinin həyətində atılmış və baxımsız durumda tapılıb. Zoohəkimlər onda alopesiya adlı xəstəliyin əlamətlərini aşkar ediblər ki, bu da ciddi streslər və iynələrin tökülməsi ilə müşayiət olunur. İlkin müdaxilə nəticəsində kirpinin kürəyindəki iynələr bərpa olunmağa başlayıb. Bu, ötən ilin sentyabrından bu günə qədər çıxan ilk iynələrdir. Amma həkimlər kirpini yenidən vəhşi təbiətə qaytarmağı düşünmürlər. Onlar deyir ki, kirpinin iynələri bərpa olunmamış bunu etmək doğru deyil.





## Çox mesajlaşan şəxslər etik dəyərlərə daha az önəm verirlər

İngiltərədəki Vinnipeq Universitetinin araşdırmasına görə, cib telefonu ilə mesajlaşma insanlar arasındakı münasibətlərə pis təsir edir. Belə ki, mesaja önəm verən şəxslərdə özünə arxayınlıq hissi azalır, lüksə daha həris olurlar. Araşdırmada Vinnipeq Universitetinin psixologiya fakültəsində oxuyan 2300 tələbədən alınan rəylər üç il boyunca yığılıb. Araşdırma nəticəsində çox mesajlaşan gənclərin çox sürətli və səthi düşündüyü ortaya çıxıb. Bundan başqa, tez-tez mesajlaşan gənclərin əxlaqi, estetik və ruhsal məqsədlərə az, imic və varlılığa isə çox dəyər verdiyi sübut edilib. Araşdırmaya görə, gündə 100-dən artıq mesaj yazan bir adam 50 və daha az mesaj göndərənlərlə müqayisədə etik dəyərlərə, yaşam prinsipinə 30 faiz daha az önəm verirlər. Bundan başqa, cib telefonu ilə mesajlaşan tələbələrin azlıq qruplara münasibətdə daha dözümsüz olduğu da üzə çıxıb.



## Bir dəqiqəlik makiyaj sayəsində... kişi qadına çevrilir

Yaponiyada yaşayan bu adam bir neçə dəqiqə müddətində makiyajdan istifadə edəndən sonra qadına bənzəyir. Amma onun bu hərəkətinin səbəbi heyrətamizdir Çünki gənc yapon təbii makiyas sənəti mütəxəssisi sayılır və öz məhsullarını sata bilmək üçün müştərilərinə çılğın bir reklam taktikası ilə müraciət edir. Satdığı məhsulları öz üzərində təcrübədən keçirən yapon bu yolla müştərilərin diqqətini cəlb edir. Bu arada onun təbii makiyaj vasitəsilə gözəl bir qadına çevrilməsi də ayrıca bir müzakirə mövzusudur.

# Həkimin qapısında qəribə elan

Türkiyənin Bursa şəhərindəki dövlət xəstəxanalarından birində cərrah İlkər Şahin qadınlara qarşı şiddətə etiraz əlaməti olaraq maraqlı bir kampaniya təşkil edib. Belə ki, həkim xəstəxanadakı otağının qapısına "Qadına əl qaldıran heyvanlara bu xəstəxanada baxılmır. Onlara baytarlar tərəfindən baxılır" sözləri yazılmış lövhə vurub. Bu addımı sosial mediada ciddi reaksiyaya səbəb olan həkim isə yerli mediaya açıqlamasında deyib ki, əslində həkimlər Hippokrat andı içirlər: "Ona görə də hər kəsi müayinə etməliyik. Amma mən şəxsi mövqeyimi ortaya qoymaq məqsədilə belə bir yazı yazdım. Məqsədim cəmiyyətin bu qanayan yarasına diqqət çəkməkdir".

Həkim bildirib ki, silah daşımaq üçün sənəd almaq istəyən vətəndaşlar da ona müraciət edir. Bu zaman həkim onlardan qadına əl qaldırıb-qaldırmadığını soruşur. Suala təsdiqləyici cavab verən şəxslərə həkimin münasibəti birmənalı olmur.






## Gənc oğlanın...hamiləlik testi pozitiv çıxdı

Sevgilisinə aid hamiləlik testini zarafat olsun deyə özünə tətbiq edən adam sonda şok bir nəticə ilə qarşılaşıb. Belə ki, test pozitiv çıxıb. Bununla da gənc oğlanın əslində xərçəng olduğu müəyyənləşib. Həkimlər bildiriblər ki, erkən diaqnoz sayəsində sağalmaq ehtimalı böyükdür. Maraqlıdır ki, əslində oğlan testin nəticəsini görəndə bunu yanlışlıq hesab edib. Amma dostları bunu sosial şəbəkədə paylaşanda şərhçilərdən biri ona xərçəng testindən keçməsini tövsiyə edib. ABŞ Milli Sağlamlıq İnstitutunun alimləri bildirib ki, əslində hamiləlik testləri sidikdə olan xroniki gonadotropin beta hormonunun miqdarını təyin edə bilir. Testis xərçəngi ilə bağı olan bu hormon hamiləlik əsnasında xüsusən aktivləşir.

## Qoroskop (31 mart)




**QOÇ** - Maraqlı hadisələrlə rastlaşacağınız gözlənilir. Hətta könülaçan məclislərdə də iştirak edə bilərsiniz. Tənbəlliyi bir kənara atın və öz səhvlərinizi başqasının ayağına yazmayın. Xilasınız məhz bundadır.

**BUĞA** - Əsas diqqətinizi yarımçıq işlərinizin həllinə yönəldin. Paralel olaraq bir neçə işlə məşğul olmaq da yaxşıdır. Saat 15-dən sonra maraqlı adamlarla görüşəcəyiniz güman olunur. Amma bu görüşlər işlə bağlı olmayacaq.

**ƏKİZLƏR** - Astroloji göstəricilərə görə ümumi əhvalınız qənaətbəxş olsa da, iş yerində çətinliyiniz olacaq. Bu səbəbdən üzərinizə düşən vəzifələrin məsuliyyətini hiss etməlisiniz. Görüş yerlərinə gecikməyin.

**XƏRÇƏNG** - Bu təqvimi mənalı tərzdə başa vuracaqsınız. Xüsusən də sevgi münasibətlərində cərəyan edən proseslər ürəyiniz istəyən istiqamətdə inkişaf edəcək. Bacardığınız qədər darıxdırıcı işlərdən uzaqlaşın.

**ŞİR** - Ətrafınızda mövcud olan "səbəbsiz" gərginlikdən narahat olmayın. Tərəfdaşlarınıza qərəzli şəkildə yanaşmasanız, vəziyyət yaxşılaşa bilər. Qida və yuxu rejiminizə fikir verin. Səhər saatlarında isə aldığınız təkliflərə razılıq verməyin.

**QIZ** - Əlinizə düşən fürsətdən istifadə etsəniz, bu gündən xeyli bəhrələnə bilərsiniz. Əks təqdirdə, karyeranız üçün uğurlu anlar əlinizdən çıxa bilər. İnsanlara qarşı inamsızlığınız heç də yaxşı əlamət deyil. Müdiriyyətlə xoş davranın.

**TƏRƏZİ** - Ulduzlar sürpriz dolu bir gün yaşayacağınıza imkan verəcək. Amma belə məqamda kiməsə yalan satmaq, hiyləgərlik etmək yolverilməzdir. Çünki sonradan bundan öz əleyhinizə istifadə edə bilərlər.

**ƏQRƏB** - Lazımi adamlarla görüşlər təşkil etməklə problemli işlərinizi yoluna qoya bilərsiniz. Maddi sıxıntılarınızın azalacağını bildirən ulduzlar səmimi və təbii olmağı, reallığa düzgün qiymət verməyi məsləhət görür.

**OXATAN** - İşgüzarlığınızı artırmaq üçün ətrafınıza layiqli tərəfdaşlar toplayın. Aldığınız hər bir təklifə başdansovdu yanaşmamalısınız. Yeni işə keçmək planınız varsa, bu gün qəti qərar verməlisiniz.

**OĞLAQ** - Göy qübbəsinin qənaətlərinə görə, yavaş-yavaş həyatın nəbzini tutmağa başlamısınız. Daxili sarsıntılarınız da səngiməkdədir. Odur ki, haqq-ədalət prinsipinə əməl etməlisiniz. Ulduzlar sizə təzə xəbərlər də yetirəcək.

**SUTÖKƏN** - Öhdənizə götürdüyünüz işlərə məsuliyyətlə yanaşsanız, günün sonunadək maddi durumunuzu təmin edə biləcəksiniz. Hətta özünüzü yaxşı aparsanız, maddi imkanınız qənaətbəxş olacaq. Hər boş sözə əhəmiyyət verməyin.

**BALIQLAR** - Axır ki, üzüntülü anlarınız başa çatacaq. Odur ki, bütün ciddi işlərin həllini sürətləndirməli, sevdiyiniz adamlarla yeni münasibətlər sisteminə keçməlisiniz. Ulduzlar uzaq səfərlərinizi təxirə salmamağı məsləhət görür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qorxu filmləri insanı arıqladırmış



Doxsan dəqiqəlik qorxulu filmlərin insan orqanizminə təsiri yarım saat qaçarkən itirilən kaloriyə bərabərdir.

Londondakı Vestminster Universitetinin alimlərinin araşdırmalarına əsasən qorxulu filmlər insan çəkisinə təsir edir. Belə ki, ani qorxu hissi orqanizmdə adrenalinin artmasına səbəb olur. Bu da öz növbəsində kalori itkisi ilə nəticələnir.

Elm adamlarının hesablamalarına əsasən, 90 dəqiqəlik qorxu filminə baxan şəxs 113 kalori yandırır. Bu isə yarım saat qaçarkən itirilən kaloriyə bərabərdir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750